

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 36 (24.418)
7 sentyabr 2024-cü il, şənbə
www.serqqapisi.gov.az

# ŞƏRQ QAPISI

100 ilin qəzeti
Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Kəlbəcər cənnətinə, "İstisu" şöhrətinə qovuşur



## Kəlbəcər səfəri: Böyük Qayıdış, "Yaşıl Enerji Zonası" konsepsiyalarına yeni töhfələr

2020-ci ildə 44 günlük Vətən müharibəsində müzəffər Ordumuzun yaratdığı reallıq, xüsusən də Ali Baş Komandanın siyasi iradəsi, diplomatik məharəti sayəsində azadlığına qovuşan Kəlbəcər Qarabağın, sözün əsl mənasında, cənnət guşəsidir. Təsadüfi deyil ki, bu rayonumuzu Azərbaycanın "qərb qapısı" adlandırırlar. Kəlbəcərin gözəl təbiəti, zəngin mineral suları ölkəmizdə turizmin inkişafına təkan verməklə iqtisadiyyatın gücləndirilməsi üçün böyük əhəmiyyət daşıya bilər. Ümummilli Liderimiz Heydər Əliyev bu yurdumuzun füsunkarlığını ən gözəl, səmimi sözlərlə dilə gətirib: ***"...Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisusu. Biz onlarsız yaşaya bilmərik. Təsəvvür edə bilmərik".*** Bu gün dövlət başçısının göstərişi, birbaşa diqqəti, nəzarəti ilə səfalı yurd yerimiz yenidən dirçəldilir, İstisuyun əvvəlki şöhrəti özünə qaytarılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın sentyabrın 2-də Kəlbəcər rayonuna səfərləri çərçivəsində keçirilən təməlqoyma, açılış mərasimləri Böyük Qayıdış proqramının icrası, işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" siyasətinin reallaşdırılması baxımından vacib məqamları ilə yadda qaldı...

Səfər, ilk növbədə, Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına mühüm töhfə kimi diqqəti çəkdi deyə bilərik. Belə ki, Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanışlıq oldu, şəhərdə ikinci yaşayış kompleksinin, inzibati binanın və İstisu qəsəbəsinin təməli qoyuldu. Birinci kompleksin tikintisi və ikincisinin təməlinin atılması, eyni zamanda yeni Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlər həm də Kəlbəcərə Böyük Qayıdışın yüksələn sədalarıdır desək, yanılmarıq. Bu əlamətdar hadisə yaddaşlarda təqvimi bir qədər geriyə çəkdi, xatirələr təzələndi. Bir neçə il öncə, daha dəqiq desək, 2021-ci il avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunandan sonra Kəlbəcərə ilk səfərləri, arıçılarla səmimi söhbətləri yada düşdü. Hələ həmin vaxt Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr edən dövlət başçısı tezliklə bu rayonumuzun bərpası, yenidən qurulması prosesinə start veriləcəyini əminliklə vurğulamışdı: ***"Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol, demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq... Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir".***

Səhifə ➡ 3

## Azərbaycanda ilk dəfə "Qlobal Enactus" və "Enactus Azərbaycan" tərəfindən Naxçıvan Dövlət Universiteti diploma təltif olunub

Səhifə ➡ 6

## Naxçıvanda "GREENLAND-Nakhchivan" adlı rəsmi "Facebook" və "Instagram" səhifələri açılıb

Səhifə ➡ 6

## Cahanın nəqşindən səsləndik bizlər...



Səhifə ➡ 4

## Voleybolçu qızlarımız güc baxımından oğlanlardan heç də geri qalmırlar



Səhifə ➡ 11

## Ötən əsrin 60-cı illərindən istismar olunan yarımstansiyalar yenidən qurulur





"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan prioritet istiqamətlərin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində bir sıra işlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, Dövlət Proqramının "2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"na uyğun olaraq Dövlət Energetika Xidməti tərəfindən 110/35/10 kilovoltluq "Çeşməbasar" və "Sədərək" yarımstansiyalarının layihələndirilərək yenidən qurulması işləri aparılır.

Həmçinin 35/10 kilovoltluq "Sədərək", "Nəzərabad" və "Əbrəqunus" yarımstansiyalarının da yenidən qurulması istiqamətində işlər davam edir.

Bu məqsədlə dövlət satınalması vasitəsilə alınmış 6 ədəd 6300 kilovat gücündə, 35/10 kilovoltluq güc transformatorlarından artıq 4 ədədi muxtar respublikaya gətirilib.

Həmçinin bu yarımstansiyaların layihələndirilməsi məqsədilə açıq tender müsabiqəsinin qalibi olan "İmpuls Group" MMC ilə müqavilə bağlanılıb.

Bundan əlavə, bu yarımstansiyaların tikiləcəyi torpaq sahələri də müəyyənləşib, yarımstansiyaların torpaqlarında topoqrafiya işləri yekunlaşdırılıb, mühəndis geoloji işləri görülüb və nümunələr Bakı şəhərinə laboratoriyaya göndərilib.

Ümumilikdə, ötən əsrin sonlarından istismar olunan, 10000-dən artıq abonentin elektrik enerjisi ilə təminatını həyata keçirən elektrik yarımstansiyaları yenidən qurulur.

Bu layihələrin icrası imkan verəcək ki, elektrik enerjisinin uzaq məsafələrə, eyni zamanda yaşayış məntəqələrinə çatdırılması, paylanması və elektrik enerjisi təchizatında səmərəliliyi, abonentlərin elektrik enerjisi ilə təminatında dayanıqlılığı və keyfiyyəti artsın.

## Dövlət Proqramı Naxçıvan idmanına mühüm töhfələr bəxş edəcək



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Dövlət Proqramına uyğun olaraq açıq hava idman qurğuları əhalinin istifadəsinə veriləcəkdir. Belə ki, ilkin mərhələdə Naxçıvan şəhəri (4 yer), sonra Şərur, Ordubad, Sədərək və Kəngərli rayonları (hərəsində 1 yer) üzrə uyğun yerlərin seçilməsi, layihələndirilməsi və qurğuların ilkin qiymətləndirilməsi prosesi yekunlaşıb. Dövlət Proqramına uyğun olaraq satınalma proseduru başladılıb və qalib şirkətlə bağlanmış müqavilə əsasında 12 müxtəlif funksiyalı açıq hava tipli idman aləti alınıb. Alətlərin təhvil-təslimi, quraşdırma xidmətinin satınalınması prosesləri yekunlaşdıqdan sonra ən son mərhələdə quraşdırma işi icra olunacaq.

Məlumat üçün bildirək ki, sözügedən idman qurğuları ilin sonunadək əhalinin istifadəsinə veriləcək.

# Azərbaycan deyəndə Onu düşünür hamı

***Adını ilk dəfə soyuq bir qış gecəsində "odun sobasının başında səhərə kimi oyaq qalıb" qorxa-qorxa müharibənin nə olduğunu bilməyən nəvələrinə tamaşa edən yaşlı qadınların dilindən eşitmişdim. Həmin günlərdə Bakıda 20 Yanvar hadisələri baş verəndə, Sədərəkdə qanlı döyüşlər gedəndə. Azərbaycan qadınının gündüzlər gücbəla ilə tapdığı bir ovuc undan bişirdiyi çörəyin ətri ilə doyub, həmin çörəyi səngərdəki əsgərə göndərib özü ac yatan vaxtlarda. Analar tək yadigarı olan nişan üzüyünü orduya dəstək üçün yeni yaradılan Müdafiə Fonduna bağışlayanda. Səngərdə şəhid olan igidin silahını götürüb düşmənlə döyüşməyə tələsən onlarla oğulu görəndə.***



**Prezident İlham ƏLİYEV:**

*"Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaqdır. Biz – Ulu Öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq."*

O vaxt cəmi 10 yaşım olsa da, qonşu qadınların "Heydər Əliyev Bakıya gəlib deyirlər, əgər belədirsə, hər şey yaxşı olacaq. O, sovet vaxtında belə erməniləri susdurmağı bacardı", – demələri hələ də yaddaşımdadır. Uşaq ürəyimdə inam hissi yaratdı o kəlmələr. Günlər keçdi, döyüşlər səngimək bilmirdi. Naxçıvanlıların gözü yolda qalmışdı, nəhayət, bir yay günü Heydər babamız Naxçıvana qayıtdı. Həmin gün insanlar öz doğmasını, əzizini qurbanlar kəsərək qarşıladı. Aclığın insanları sınağa çəkdiyi bir vaxtda qapısındakı son quzusunu Heydər Əliyevin gəlişinə görə qurban kəsdi naxçıvanlılar. Sədərəkdə düşmən mərmisi ilə xarabaya dönən evindən salamat çıxardığı tək əşyası olan xalçanı O gələn yollara sərdi. Vətən oğlunun gəlişi hər kəsin qəlbində ümid işığı yandırdı çünki.

Biz uşaqlar Heydər babamızın bizə bəxş etdiyi xoşbəxtliklə böyüdük. Sinif otaqlarında yaş odunla yanan sobanın tüstüsü daha gözlərimizi yaşartmırdı, artıq düşmənin atdığı mərmilər bizi qorxutmur, gecələr rahat yatırdıq. Çünki artıq Heydər babamız gəlmişdi. O bizimlə birlikdə idi. O da bizim kimi çıraq işığında, odun sobasının isitdiyi mənzildə yaşayır, bəzən çörək növbəsində belə dayanmaqdan çəkinmir, döyüş bölgəsinə gedir, səngərlərdəki oğullarla görüşür, şəhid analarının dərdinə şərik olurdu. İnsanların çətin şəraitdə də olsa da, torpağını qoruması həmin vaxtlarda Naxçıvana "kor bağırsaq" deyənlərin gözünə ox kimi batırdı.



Biz bir olub, Ulu Öndərin ətrafında birləşib yumruğa döndük. Sədərəkdə onlarla oğul bir qarış torpaq üçün canından keçdi, şəhid anaları qəddini əymədi. Və həmin günlərdə düşmənin başına şimşək kimi çaxan oğullar Vətən oğluna qarşı atılan xain daşlara da sipər etdilər özlərini. Xalq öz oğlunu bağrına basıb Onu qorudu. Çünki yaxşı bilirdik ki, sovetlər dövründə belə erməni xainlərini susdurmağı bacaran insan idi Heydər Əliyev. Xalqın inamı və dəstəyi, dahi rəhbərin siyasi gücü, dərin zəkası, çətin vəziyyətlərdə verdiyi düzgün qərarlar Günəş kimi nur saçdı yurdumuzun səmasına. Naxçıvandan başlanan yol Bakıdan keçib Şuşaya, Xankəndiyə uzandı.

Biz həmin dövrün uşaqları Vətən oğlunun sevgisi ilə böyüdük. Gözəl Vətənimizin, müasir Azərbaycanın təməlinin atılmasına şahid olduq. Sonra daşların bir-bir necə yerinə qoyulduğunu gördük. Göylərə ucalan təhsil, səhiyyə, mədəniyyət, yaşayış binalarının necə qurulduğunu izlədik. Və nə xoşbəxt bir nəsilik ki, 1990-cı ildə Naxçıvanda düyünlənən yumruğun dəmir kimi bərkiyib Vətən savaşında düşmənin başında şimşək kimi çaxmasına şahid olduq. Ulu Öndərin vaxtilə Naxçıvanda dediyi sözlərin Şuşada da yerinə yetdiyini gördük, eşitdik. 1990-cı illərdə Naxçıvanda Ulu Öndərin zəhməti ilə göylərə qaldırılan bayrağımızın Şuşada, Xankəndidə dalğalandığına şahid olduq. Hər qələbə xəbərində, xalqımızın hər xoş günündə Onu andıq.

Bu həmişə bax, beləcə, davam edəcək, çünki bu xalq daim Vətən oğlunu minnətdarlıq hissi ilə xatırlayacaq.

Ramiyə ƏKBƏROVA



# Kəlbəcər cənnətinə, "İstisu" şöhrətinə qovuşur



**Kəlbəcər səfəri: Böyük Qayıdış, "Yaşıl Enerji Zonası"konsepsiyalarına yeni töhfələr**

## Prezident İlham ƏLİYEV:

*"Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"*

(əvvəli 1-ci səhifədə)

Ölkə başçısının bu qətiyyətli fikirləri səsləndirməsindən ötən müddətdə Kəlbəcərdə yeni yaşayış məntəqələrinin, kəndlərin təməlinin qoyulması, yol, təhsil infrastrukturunun qurulması, eləcə də bir sıra su elektrik stansiyalarının, hərbi hospitalın istifadəyə verilməsi Böyük Qayıdışa zəmin yaradan əsas amillər oldu. Və 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində cənab Prezident çoxdan gözlənilən bu qayıdışın müjdəsini verdi: ***"Bütün bu infrastruktur layihələri imkan verir ki, biz bu il daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytaraq və onların bu il qaytarılacaqları şəhərlər arasında beş şəhər – Şuşa şəhəri, Cəbrayıl şəhəri, Kəlbəcər şəhəri, Xankəndi şəhəri, Xocalı şəhəri olacaq. Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur".*** Cari il sentyabrın 2-də Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanışlıq zamanı isə ölkə başçısı və birinci xanıma bildirildi ki, birinci mərhələdə buraya 201 ailə köçürüləcək. Bunun üçün kompleksdə hər birində 27 mənzil olmaqla, dördmərtəbəli 6 bina tikilib. Mənzillərin 54-ü ikiotaqlı, 72-si üçotaqlı və 36-sı dördotaqlıdır. Kompleksdə, həmçinin "townhouse" tipli ikimərtəbəli 39 ev də inşa olunub. Bu evlərin hər biri üçotaqlıdır. İkinci mərhələdə isə bu kompleksə 323 ailənin köçürülməsi planlaşdırılır. Bunun üçün müxtəliftipli dördmərtəbəli 16 çoxmənzilli yaşayış binası, "townhouse" tipli ikimərtəbəli 57 ev inşa olunacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılır. Ərazidə park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

İşğaldan azad olunmuş torpaqlara Böyük Qayıdış proqramının icra əhəmiyyəti barədə danışdıqda xüsusi vurğulamaq lazımdır ki, proqramın əsas prioritetləri sırasında əhalinin məskunlaşması ilə yanaşı, onların məşğulluqlarının təmini, eyni zamanda bütün sahələrdə, o cümlədən də uşaqların gələcəyi üçün müasir təhsil infrastrukturunun qurulması da vacib faktor yer alıb. Məhz Kəlbəcərdə aparılan tikinti-quruculuq prosesində də bu amil xüsusilə diqqəti çəkir. İnşası aparılan Kəlbəcər Şəhər Təhsil Kompleksi və bu il açılması planlaşdırılan modul tipli məktəbin layihəsi də bu baxımdan böyük perspektivlər vəd edir. Müasir standartlara uyğun inşa olunan təhsil kompleksi, ümumilikdə, işğaldan azad edilmiş ərazilərin bərpası prosesində təhsil infrastrukturunun qurulmasına xüsusi diqqət yetirildiyinin əyani təzahürüdür. Xatırlatmaq yerinə düşər ki, Kəlbəcər rayonunda ilk məktəb 1924-cü ildə fəaliyyətə başlayıb. İşğal edilməzdən əvvəl rayonda 96 ümumtəhsil məktəbi, o cümlədən 46 tam orta, 42 ümumi orta, 8 ibtidai məktəb fəaliyyət göstərirdi. Bunlardan əlavə, rayonda bir texniki peşə məktəbi, iki əyani-qiyabi məktəb, səkkiz məktəbdənkənar və dörd məktəbəqədər təhsil müəssisəsi də var idi...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın sentyabrın 2-də Kəlbəcər rayonuna səfərləri dövlət başçısının işğaldan azad olunan ərazilərdə "yaşıl enerji zonası"nın yaradılması siyasətinin növbəti təzahürü kimi də tarixə düşdü. Xatırlatmaq yerinə düşər ki, bu siyasətə uyğun olaraq artıq "AzərEnerji" ASC tərəfindən bu günədək Qarabağ və Şərqi Zəngəzurda 32 yerdə su elektrik stansiyaları tikilib, Laçın şəhərində, rayonun Zabux, Sus, Zəngilanın Ağalı kəndlərində, Füzulidə yaşayış evlərində, məktəb və inzibati binalarda damüstü günəş panelləri quraşdırılıb və "yaşıl enerji"dən istifadə təmin edilib. "Yaşıl Enerji Zonası" konsepsiyasına uyğun paralel olaraq Kəlbəcər rayonunun timsalında da mühüm addımlar atılıb. Ötən dövrdə "Kəlbəcər-1", "Çıraq-1" və "Çıraq-2", "Qamışlı" və "Meydan" Kiçik, bu il sentyabrın 2-də isə 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik stansiyalarının istifadəyə verilməsi həm çətin relyefə malik Kəlbəcərin elektrik enerjisi ilə tam təmin olunması istiqamətində reallaşdırılan əhəmiyyətli işlər kimi təqdirəlayiqdir, həm də sözügedən konsepsiyaya əvəzsiz töhfələr vəd edir...

Yeni tikilən "Yuxarı Vəng" Su Elektrik Stansiyası Vətən müharibəsindəki Qələbədən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyi olaraq da məxsusi yerə və rola malikdir. Gücü 22,5 MVt olan bu SES-də istehsal edilən "yaşıl enerji" növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisi tələbatını tam ödəyə bilər. Bu layihə








ölkəmizin həm "Yaşıl dünya naminə həmrəylik ili"nə həm də COP29-a ev sahibliyi missiyasına töhfə kimi əhəmiyyətlidir. Eyni zamanda "Yuxarı Vəng" SES Azərbaycanın enerji sektoru ilə bağlı beynəlxalq səviyyədə qəbul edilən ekoloji standartlara uyğun icra edilib və ölkəmizin "yaşıl enerji" inkişafına, siyasətinə sadiqliyini göstərən bariz nümunədir, real göstəricidir...

Ümumi fikir olaraq onu deyə bilərik ki, ölkə başçısı və birinci xanımın budəfəki Kəlbəcər səfəri Xudavəng monastır kompleksi timsalında bölgəyə xas tarixi dəyərlərin təbliğinə, "İstisu" mineral su zavodunun istifadəyə verilməsi ilə İstisuyun şöhrətinin özünə qaytarılmasına, turizmin inkişafına, eyni zamanda Böyük Qayıdış və "Yaşıl Enerji Zonası" konsepsiyalarına yeni töhfələr kimi tarixə düşdü. Bu səfər həm də Kəlbəcər sakinlərinin cənab Prezidentə, aparılan uğurlu siyasətə olan sonsuz inamının, sevgisinin əyani təzahürünə çevrildi. Əminik ki, laçınlılar, şuşalılar, füzulililər, zəngilanlılar kimi, kəlbəcərlilər də tezliklə öz el-obalarına əbədi qayıdış edəcək, bənzərsiz təbiət gözəli olan bu yurdumuz ölkə turizminin inkişafında, iqtisadiyyatının gücləndirilməsində əvəzsiz rol oynayacaq. Qalib Ali Baş Komandanın dediyi kimi: ***"Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"***

**Nail ƏSGƏROV**

# Cahanın nəqşindən səsləndik bizlər...





***Naxçıvan deyəndə insanın düşüncəsində nələr canlanır? Ədəbiyyat? Üfüq boyu uzanan zirvələr? Yoxsa bu diyarın yetişdirdiyi şəxsiyyətlər? Bəlkə də, bütün hamısı...***

Haçadağ, Əshabi-kəhf qayalıqları, Kəmərli dağ və Gəmiqaya. Bu zirvələr, görəsən, bizim bilmədiyimiz nələrə şahidlik edib, neçə əsrlərdir, nələri öz köksündə sıxıb saxlayır? Gəmiqaya qayalıqları üzərindəki yallı gedən insanlar nəyə görə belə sevinirdilər? Axı həmin an nə baş vermişdi? Maraqlı suallar çoxdur... Haçadağla bağlı rəvayətlər, Nuh Peyğəmbərin gəmisi və daha nələr-nələr... Tarixin məşhur Şiraz qonaqlığında adıçəkilən Hacı xan, qılınc əldə qəhrəmanlıqlar göstərən Kalbalı xan... Baxmayın ki, həmin dövrdə vahid vətən yox idi, amma onlar olduğu məkanı vətən etməyi bacardılar. Rusiya tərəfindən sonuncu işğal olunan xanlıqları xatırlayaq. Naxçıvan və İrəvan...

Möminə xatın türbəsi, Yusif ibn Küseyir abidəsi, tarixi Came məscidi kimi tikililəri, allı-güllü xalça naxışlarıtək Naxçıvan şəhərini toxuyan məşhur memar Əbubəkr Naxçıvani... Nədir bu ornamentlərin sirri? Memar Əcəmi Naxçıvanın tarixi mancanağından nələri keçirməyə çalışırdı? Naxçıvan-Marağa memarlıq məktəbini genişləndirən dahi memarın tələbələrinin qonşu ölkələrdə yaratdığı sənət əsərləri indi də dahi Əcəminin nəfəsini daşıyır...

Əlincə qalası... Nəyə görə böyük sərkərdə Əmir Teymur üçün bu istehkam məntəqəsini ələ keçirmək belə vacib idi? Ankara döyüşünə fil aparan Əmir kimi bir sərkərdə üçün Əlincə qalasında yerləşən xəzinənin nə önəmi var idi? Neçə-neçə döyüşlər yola salıb döyüş meydanında yox, xəstəlikdən ölən sərkərdə niyə Əlincə qalasını tuta bilmirdi?

Yeri gəldi bu diyarın memarlıq abidələrini, tarixi izlərini yoxa çıxarıb saxtalaşdırmaq istədilər. Rəssamların gözləri qədər dəyər verdikləri rəsmlər belə Naxçıvan tarixinin qurtarış simvoluna, tarixin sübutuna çevrildi. Bəhruz Kəngərlinin rəngarəng boyaları belə Naxçıvan tarixini xilas edibsə, qılıncla etdiklərimizə təəccüblənməyə dəyməz.

Tarixin ilkin başlanğıcından bu günə böyük bir dövrü özündə gizlədən Naxçıvan yeri gəldi Səfəvi və Osmanlının savaş meydanı, yeri gəldi Eldənizlər kimi böyük bir dövlətin mərkəzi iqamətgahlarından biri və bu qədim türk dövlətinin paytaxtı oldu. Bir vaxtlar Qarabağın və Zəngəzurun qoyun-quzu sürülərini özündə cəmləşdirən Salvartı dağı indi həmin sürülərə həsrətdir... Sən demə, dağın da həsrəti olarmış...

Sədərəkdən tutmuş Şah Abbasın vergidən azad etdiyi Ordubada qədər bu diyarın hər qarış torpağı bizlər üçün doğmadır. Fərq etmir hansı məkanda doğulmusan, hansı məkanda qaçıb-oynamısan. Vətən deyildikdə axı kimlər cəm olmadı vətən üçün? “Turana qılıncdan daha kəskin ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!” kəlamını dilində şüar edən Cavid Əfəndinin diyarına qədər, Qacarın önündə Vaqifə baş əydirməyən Səməd Vurğunun diyarına qədər hər bir igid oğlu bu vətən üçün bir yumruq oldu...

Yeri gəldi bu vətən üçün Cəlil Məmmədquluzadə tək qələmdə iti, yeri gəldikdə isə Hüseyn Cavidtək romantik olduq. Gah Vətən deyildikdə Kalbalı xantək atlanıb vətəni qoruduq, gah da Məmməd Araz, İslam Səfərlitək əldə qələm, dizdə vərəq xəyallara daldıq. Baxmayın, bu şəxsiyyətlər fərqli zamanın adamlarıdır, lakin hər biri 100 illik muxtariyyət qürurunu daşıyan eyni diyardan – dünyanın nəqşindən salamladı bizləri...

Rafiq TƏHMƏZ






# Qürur rəmzi şəhid məzarları qarşısında...

***...Bir yay günü şəhərimizin Cəlil Məmmədquluzadə küçəsindən keçirəm. Əzizlərimizin uyuduqları qəbiristanlığın yerləşdiyi bu küçədən keçən hər kəsin bir anlıq ayaq saxladığını görürəm. Qırmızı qərənfil və əklillərin dövrəyə aldığı məzarlar hamını şəhidlərimizin ruhuna hörmət və ehtirama çağırır. Dəmir qapıdan içəriyə daxil oluram. Vətənimizin qəhrəman oğulları qarşılayır məni təbəssümlə, qürurlu baxışlarla...***



Yenə gəldim görüşünüzə, boğazım düyünlənib, bu ləyaqət, ucalıq qarşısında göz yaşlarımı gizlədə bilmirəm. Sözlərim, cümlələrim kifayətsiz qalır. Ürəyinizdəki cəsarətin, inamın, qolunuzdakı qüvvətin, gücün nəticəsidir ki, bu gün rahat nəfəs alırıq, yaşayırıq. Hərəniz bir evin əziz övladları idiniz, indi isə bütöv Azərbaycanın övladlarısınız. Qəlbinizdən süzülüb gələn "Ya Qarabağ, ya ölüm!" şüarı ilə canınız, qanınız bahasına müharibəyə atıldınız. Biriniz Suqovuşanda, biriniz Şuşada, biriniz Cəbrayılda, biriniz Füzulidə, biriniz Qubadlıda... Yorulmadan, qorxmadan, cəsarətlə sona qədər getdiniz. Düşmən gücünüz qarşısında lərzəyə gəldi, geri çəkildi, ağ bayraq qaldırdı. Naxçıvan torpağının vətənpərvər oğulları, ürəyimizdəki Qarabağ dərdinə son qoydunuz, qanayan yaralarımızı sağaltdınız. Hər bir qarışı cənnət qoxan torpaqlarımıza qovuşdurdunuz bizi. O torpaqlara ilk ayaq basan, havasını udan, suyundan içən siz oldunuz. Bir çoxunuzun da bir gün o yerlərdə yaşamaq arzusu var idi. Qarabağımız cənnətdir axı...

44 günlük Vətən müharibəsi, ötən il həyata keçirilən antiterror əməliyyatı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı sizin kimi qeyrətli, igid oğulların sayəsində. İndi məzarlarınız yan-yanadır. Əsgərlər Xansu Qurbanov, İbrahim İbrahimov, gizir Vaqif Rəcəbov, baş leytenantlar İsmayıl Vəliyev, Elnur Zeynalov, Fuad Əlizadə, Raqib Hüseynov, "Naxçıvan canavarı" ləqəbli leytenant Vəli Quliyev, İbrahim Qasımov, mayor Sadiq Həsənov, kapitan Aşur Cəmiyev və Elcan Balabəyli uyuyur bu məzarlarda. Onlar 20, 24, 28, 34 yaşda idilər...

Ömürlərinin bahar çağı payıza dönən şəhidlərimiz, Zəfər yolunun keşikçiləri, sizi hər gün bu qəbiristanlığa ziyarət etməyə gəlirlər. Ürəyi qanayan, lakin başı dik, qürurlu valideynləriniz gəlir. "Vətən sağ olsun", – deyib, məzar daşlarını qucaqlayıb öpür, sizdən doymurlar. Qəhrəmanlıq haqqında hekayənizi, cəsarətinizi hamı ilə paylaşmaq istəyirlər. Sizin kimi vətənpərvər övladlar yetişdirib, böyütdükləri üçün onlara minnətdarıq.

Vətən, torpaq uğrunda canından keçənlər ölmürlər, əbədilik qazanırlar. Siz də min illər keçsə belə yenə xatırlanacaqsınız, gənclərimizə örnək olacaqsınız. Allah sizə rəhmət eləsin!

**Güntac ŞAHMƏMMƏDLİ**

## Dövlət Proqramının icrası Dövlət İmtahan Mərkəzində uğurla davam etdirilir

*Son illərdə ölkəmizin davamlı və dayanıqlı inkişafını təmin etmək məqsədilə insan kapitalının formalaşdırılması və ondan səmərəli istifadə dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi qəbul edilib və bu istiqamətdə atılan bütün təşəbbüslər dövlət tərəfindən dəstəklənməkdədir.*

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda həyata keçirilməsi nəzərdə tutulmuş mühüm məsələlərdən biri də dövlət qulluğuna qəbul və inzibati dövlət qulluğu vəzifələrinin tutulmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsidir. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin əməkdaşı* ***Mahir Abbasov*** *"Şərq qapısı" qəzetinə müsahibəsi zamanı bildirib ki, Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilib.*



Dövlət Proqramının əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır.

Müsahibimiz deyir ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı sahəsində qarşıda duran əsas məqsəd beynəlxalq təcrübədə təsdiqini tapmış ən yaxşı təcrübələrin tətbiqi ilə əldə olunan iqtisadi və sosial nailiyyətlərin səmərəsinin artırılmasıdır. Bu məqsədə nail olmaq üçün 2023-2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunub və proqramın həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılıb və əsas hədəf göstəriciləri dayanıqlı inkişafın təmin olunması, məşğulluq imkanlarının artırılması əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir.

Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planında prioritet istiqamət olaraq iki istiqamət – "insan kapitalının inkişafı" və "institusional inkişaf" icraçı qurum kimi Dövlət İmtahan Mərkəzinə həvalə edilib.

Tədbirlər Planına uyğun insan kapitalının inkişafı üzrə – dövlət qulluğunda bilik, bacarıq və səriştənin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün ilkin nəticə olaraq dövlət qulluqçularının bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi üçün təlim modullarının hazırlanması, aralıq nəticə olaraq müvafiq dövlət orqanlarında (qurumlarında) dövlət qulluqçularının təlimlərə cəlb edilməsi və yekun nəticə olaraq dövlət orqanlarında (qurumlarında) qulluq keçən dövlət qulluqçularının bilik, bacarıq və səriştələrinin artmasıdır.

İnstitusional inkişaf üzrə – dövlət qulluğuna qəbul və inzibati dövlət qulluğu vəzifələrinin tutulmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi üçün ilkin nəticə olaraq qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə müvafiq normativ-hüquqi aktların layihələrinin hazırlanması və təsdiq edilməsi, aralıq nəticə olaraq Naxçıvan Muxtar Respublikası ərazisində dövlət qulluğuna qəbul və inzibati vəzifələrin tutulması üzrə vahid yanaşmanın və yekun nəticə olaraq Naxçıvan Muxtar Respublikası ərazisində dövlət qulluğuna qəbul və inzibati vəzifələrin tutulması üzrə vahid yanaşmanın tətbiq edilməsidir.

Müsahibimizin sözlərinə görə, mərkəzin müvafiq istiqamətdə əsas fəaliyyəti dövlət qulluğu sahəsində dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsi, dövlət qulluğuna namizədlərin müsabiqə yolu ilə seçilməsi, dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətinin öyrənilməsi, dövlət qulluğunda etik davranış qaydalarına əməl edilməsinə nəzarət, dövlət qulluqçularının peşəkarlığının artırılmasına dair müvafiq tədbirlərin görülməsi, dövlət qulluğunda maarifləndirmənin həyata keçirilməsi, dövlət qulluqçularının reyestri və vəzifələrin idarə olunması üzrə elektron sistemlərin yaradılması və təkmilləşdirilməsi ilə bağlıdır.



Dövlət Proqramı dövlət qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi, dövlət qulluğunun informasiya təminatının yaxşılaşdırılması sahəsində və bir sıra əlaqəli sahələrdə əsaslı islahatlar aparılmasını nəzərdə tutur.

Mahir Abbasov dedi ki, Dövlət Proqramına uyğun olaraq Dövlət İmtahan Mərkəzi tərəfindən Tədbirlər Planının 8.9.8 və 8.10.12-ci bəndlərinin icrası ilə bağlı insan kapitalının inkişafı və institusional inkişaf ilə əlaqədar müxtəlif mövzularda təlimlər keçirilib. Həmçinin "Dövlət orqanlarında inzibati vəzifələrin tutulması şərtləri və qaydaları" və "Dövlət qulluğunda ehtiyat kadrların idarə edilməsi", "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" və "Dövlət qulluğu sahəsində təlimlər", "Dövlət qulluqçularının Reyestrinin aparılması qaydaları" mövzularında təqdimatlar edilib.

Təlimdə mərkəzin əməkdaşları tərəfindən iştirakçılara inzibati vəzifələrin müsabiqə, ümumi və daxili müsahibə əsasında tutulması, namizədlərə dair tələblər, müvafiq vəzifələr üzrə qulluq funksiyalarının, vəzifənin tutulma şərtlərinin müəyyən edilməsi, müsahibə proqramlarının hazırlanması ilə bağlı tələblər, habelə "Dövlət Qulluqçularının Reyestri İnformasiya Sistemi", "Dövlət Qulluğu – Vəzifələrin İdarə edilməsi Sistemi" və "Dövlət Qulluğu – Ehtiyat Kadrların İdarə Edilməsi Sistemi"ndən istifadə, dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin təşkili və keçirilməsi qaydaları, dövlət qulluğu sahəsində təlimlər və müvafiq sahəyə dair digər məsələlər barədə məlumat verilib. Təlimlərdə muxtar respublika üzrə 1000-ə yaxın dövlət qulluqçusu iştirak edib.

Nəticə olaraq təlimdə iştirak edən dövlət qulluqçularına qiymətləndirmə üçün kağız daşıyıcı vasitəsilə anket formasında sorğu xarakterli təlimlərlə bağlı suallar təqdim olunub. Dövlət qulluqçuları sorğu formasını doldurduqdan sonra elektron formada reyestr məlumatları bölməsində şəxsi kabinetlərinə sertifikatlar yerləşdirilməsi istiqamətində işlər aparılır.

Qeyd edək ki, Dövlət Proqramı çərçivəsində görülmüş işlər muxtar respublikanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaradır.

**Bülbül QULİYEVA**

## Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində ilk dəfə olaraq Toksikologiya şöbəsi yaradılıb



Naxçıvan Muxtar Respublikasında səhiyyə ilə bağlı mühüm Dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Muxtar respublikada aparılan səhiyyə islahatlarının əsas məqsədlərindən biri səhiyyə xidmətlərinin gücləndirilməsi, göstərilən tibbi xidmətlərin keyfiyyəti, əhalinin tibbi xidmətlərə əlçatanlığının təmin edilməsidir ki, Yoluxucu Xəstəliklər Mərkəzinin Toksikologiya şöbəsinin açılışı və fəaliyyətə başlaması ilə muxtar respublikanın səhiyyə sahəsində daha bir əhəmiyyətli addım atılmışdır. Bu yeni şöbə regionda tibbi xidmətin səviyyəsini yüksəltməklə yanaşı, sakinlərə daha keyfiyyətli və ixtisaslaşdırılmış tibbi xidmət göstərmək məqsədi daşıyır.

Keçmişdə Naxçıvan Muxtar Respublikası ərazisində toksikoloji profilə aid olan xəstəliklərin müalicəsi ümumi profilli xəstəxanalarda aparılırdı. Bu isə tibb müəssisələrində iş yükünün artmasına, xəstəxanalarda sıxlığın yaranmasına və xüsusi baxım tələb edən xəstələr üçün lazımi tibbi yardımı göstərməkdə çətinliklərə səbəb olurdu. Toksikologiya şöbəsinin fəaliyyətə başlaması ilə bu problemlərin aradan qaldırılması və xidmətin keyfiyyətinin artırılması istiqamətində böyük bir addım atılmışdır.

Yeni Toksikologiya şöbəsi ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş və beynəlxalq standartlara cavab verən bir mərkəz olaraq fəaliyyət göstərir. Burada 7/24 ixtisaslaşmış həkim və tibb personalı tərəfindən geniş spektrli tibbi xidmətlər təqdim olunur. Şöbə qida, göbələk, dərman, ilan, əqrəb sancmaları və digər zəhərli heyvanlarla bağlı zəhərlənmələr, həmçinin botulizm, dəm qazı və müxtəlif toksik qazlarla yaranan zəhərlənmələrin diaqnostikası və müalicəsi ilə məşğul olur.

Bu yenilik muxtar respublika əhalisinə yüksək səviyyəli tibbi yardımın göstərilməsini təmin edəcək və səhiyyə sistemimizin inkişafını daha da irəliyə aparacaqdır.

## Naxçıvanda “GREENLAND-Nakhchivan” adlı rəsmi “Facebook” və “Instagram” səhifələri açılıb

@GREENLANDNAKHCHIVAN

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi və COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar muxtar respublikada müxtəlif tədbirlər təşkil olunur.

COP (Conference of the Parties; Tərəflərin Konfransı) konfransı ilk dəfə 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumdur. 198 ölkənin təmsil olunduğu COP-un missiyası konvensiyadan irəli gələn tələblərin, tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər, əsasən, qlobal istiləşmə tempini səngitmək, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq və 2050-ci ilə qədər “0” – sıfır emissiyaya nail olmaqdır. Sonuncu, COP28 adlandırılan 28-ci konfrans 2023-cü ilin 30 noyabr-12 dekabr tarixlərində Dubay şəhərində keçirilmişdir. Bu il COP29 konfransı isə 2024-cü ilin 11-24 noyabr tarixlərində Bakı şəhərində keçiriləcəkdir. Konfrans (COP29) çərçivəsində dünyanın, təxminən, 190-dan çox ölkəsini təmsil edən 80-100 min nəfərə qədər nümayəndə heyətinin qəbul edilməsi gözlənilir və ölkə tarixində keçiriləcək olan ən böyük tədbir hesab olunur. Azərbaycanın belə bir mötəbər tədbirə ev sahibliyi etməsi ölkəyə yerli, regional və beynəlxalq miqyasda çox böyük dividendlər qazandıracaqdır.

Naxçıvan Muxtar Respublikasında da COP29 və “Yaşıl dünya naminə həmrəylik ili”nə hazırlıqla bağlı keçirilən müşavirənin 23 fevral 2024-cü il tarixli 6 nömrəli Protokolu ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən bir sıra tədbirlər həyata keçirilir. Həmin Tədbirlər Planının mvafiq bəndinə əsasən “GREENLAND-Nakhchivan” adlı rəsmi “Facebook” və “Instagram” səhifələri açılıb. Səhifələrdə “yaşıl enerji zonası” elan olunmuş Naxçıvan Muxtar Respublikasında bu sahədə bioloji müxtəlifliyin qorunması, ətraf mühitin mühafizəsi, su ehtiyatlarından səmərəli istifadə olunması, COP29 və “Yaşıl dünya naminə həmrəylik ili” ilə bağlı, COP-un mahiyyəti və məqsədlərinə aid maarifləndirici tədbirlər, görülən işlər, hazırlanmış videomateriallar paylaşılır.

Gənclər və İdman Nazirliyi tərəfindən Tədbirlər Planına uyğun olaraq Yaşıl dünya könüllüləri proqramı həyata keçirilib, Naxçıvan şəhərində ətraf mühitin qorunmasını təşviq edən posterlər rəqəmli bilbordlarda və monitorlarda yerləşdirilib, gənclərin iştirakı ilə ağacəkmə, təmizlik və tullantılarını tingə dəyiş aksiyaları, “Old street, eco-art” adlı rəsm sərgisi, kros qaçışı və velosiped yürüşü, müxtəlif idman növləri üzrə yarışlar, Zəngəzur Milli Parkı ərazisinə ekskursiyalar, “Karbon ayaq izi” adı altında təhsil müəssisələrində maarifləndirici tədbirlər təşkil olunub.

## Yol-nəqliyyat infrastrukturu yenilənir



Naxçıvan şəhərində yol-nəqliyyat infrastrukturu yenilənir, magistral və daxili yollar təmir olunur. Naxçıvan şəhəri, 6-cı küçədə sakinlərin, həm də bu yoldan istifadə edən digər vətəndaşların rahat gediş-gəlişini təmin etmək, yük və sərnişin daşımasını asanlaşdırmaq məqsədilə daxili yollar təmir olunub, asfaltlanma işləri görülüb, yağış sularının ərazidən kənarlaşdırılması və əhalinin suvarmada istifadəsi üçün yol kənarlarında su kanalları çəkilib. Hal-hazırda isə Əliabad qəsəbəsində yol təmiri işləri aparılmaqdadır.

Qeyd edək ki, görülən işlərin davamı olaraq ilin sonunadək Naxçıvan şəhər Qaraçuq, Hacıniyyət kəndləri, Səməd Vurğun, Nəcməddin Naxçıvani küçələri, 6-cı məhəllə və digər ərazilərdə də məhəllədaxili yolların təmiri işlərinin aparılması nəzərdə tutulub.



## Azərbaycanda ilk dəfə “Qlobal Enactus” və “Enactus Azərbaycan” tərəfindən Naxçıvan Dövlət Universiteti diploma təltif olunub



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev “Enactus Azərbaycan”ın rəhbəri, Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının baş katibi Rəşad Zeynalovla görüşüb.

Görüşdə Elbrus İsayev “2024-cü il Enactus Azərbaycan Milli Yarışı”nda beşinci dəfə qalibiyyət əldə edən universitet komandasının uğurlarından bəhs edib. Bildirilib ki, komanda müxtəlif illər ərzində ölkəmizi beynəlxalq yarışlarda təmsil edib. Enactusla bağlı yeni layihələrin hazırlandığını qeyd edən rektor sözügedən milli çempionatın tələbələr üçün önəmindən söz açıb. Vurğulanıb ki, ölkənin iqtisadi potensialının gücləndirilməsində gənclərin rolunu artırmaq, sahibkarlıq fəaliyyətini stimullaşdırmaq, azad sahibkarlıq ideyasını tələbələr arasında təbliğ etmək, eyni zamanda onlarda təşkilatçılıq və idarəçilik qabiliyyətlərinin inkişaf etdirilməsində Enactusun rolu əvəzsizdir. Elbrus İsayev respublikada gənclər siyasəti və kadr hazırlığına öz töhfəsini verən, tələbələrin böyük maraq göstərdiyi bu çempionata yaradılan şəraitə və şəffaf mühitə görə təşkilatçılara təşəkkürünü bildirib.

“Enactus Azərbaycan”ın rəhbəri, Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının baş katibi Rəşad Zeynalov NDU-nun “Enactus” komandasını Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Gənclər Fondu, Azərbaycan Tələbə Təşkilatları İttifaqı və “Enactus Azərbaycan”ın təşkilatçılığı ilə keçirilən “Enactus Azərbaycan” milli çempionatında 5-ci dəfə qalib olmağı münasibətilə təbrik edib. Rəşad Zeynalov Qazaxıstanın Astana şəhərində keçiriləcək “Enactus” Dünya Kubokunda ölkəmizi təmsil edəcək Naxçıvan Dövlət Universiteti komandasına uğurlar arzulayıb.

Sonra yarışda 5 dəfə uğurlu iştirakına görə Azərbaycanda ilk dəfə “Qlobal Enactus” və “Enactus Azərbaycan”ın diplomu Naxçıvan Dövlət Universitetinə təqdim olunub. Eyni zamanda Enactus yarışında göstərdiyi xidmətlərə görə NDU-nun “Enactus” komandasının rəhbəri Ülvi Baxışlı “Qlobal Enactus” və “Enactus Azərbaycan” tərəfindən diplomla təltif edilib.

Sonda ali təhsil ocağının rektoru qonağa hədiyyə təqdim edib.

## Batabat yaylağındakı oba sakinlərinə səhiyyə, baytarlıq və ticarət xidmətləri göstərilib



2024-cü ilin yaylaq mövsümündə oba sakinlərinə səhiyyə, baytarlıq və ticarət xidmətləri göstərilməsi üçün Şahbuz Rayon İcra Hakimiyyətində qrafik tərtib olunub. Hazırlanmış qrafikə uyğun olaraq avqustun 4-də Batabat yaylağındakı heyvandarlıqla məşğul olan oba sakinlərinə səhiyyə, baytarlıq və ticarət xidmətləri göstərilib. Oba sakinləri göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

## STEAM tədris edən müəllimlər üçün növbəti müsabiqə keçirilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə ümumtəhsil müəssisələrində STEAM təhsil metodu üzrə kadr ehtiyacının ödənilməsi məqsədilə bu fənni tədris edən müəllimlər üçün növbəti müsabiqə keçirilib.

Müsabiqədə Təhsil Nazirliyinin STEAM təhsil metodu ilə bağlı təşkil etdiyi təlimləri başa vurmuş 166 namizəd iştirak edib.

Müsabiqədə namizədlərin metodika, STEAM fəlsəfəsi, arduino, mikrobit, 3D printer və tinkerCad mövzuları ilə bağlı biliklərinin yoxlanılması məqsədilə hər bölməni əhatə edəcək şəkildə, ümumilikdə, 30 test tapşırığı təqdim olunub və test tapşırıqlarının yerinə yetirilməsi üçün 90 dəqiqə vaxt ayrılıb. Hər bir düzgün cavab bir balla qiymətləndirilib.

Şəffaflığın təmin olunması baxımından namizədlərin imtahan nəticələri onların iştirakı ilə yoxlanılıb və imtahan nəticəsi binanı tərk etmədən namizədə elan olunub.

Məlumat üçün bildirək ki, test tapşırıqlarının 50 faizini düzgün cavablandırmış namizədlər müsahibə mərhələsinə buraxılacaqlar və bu mərhələdə keçid balını toplamış hər bir namizəd üçün 2 il qüvvədə olan STEAM təhsili üzrə tədris prosesini aparmağa icazə hüququ verən sertifikat təqdim olunacaq.

## Dövlət Proqramı icra olunur

# Şəffaflıq, operativlik və əhatəlilik prinsipləri ilə – Vergi Ödəyicilərinə Xidmət Mərkəzi

## *Naxçıvanda bu mərkəzlərdə göstərilən xidmətlərdən razılıq səviyyəsi 99,1 faizdir*

Ölkənin iqtisadi siyasətinin uğurla reallaşdırılmasında əsas faktorlardan sayılan dövlət büdcəsinin maliyyə resursları ilə təmin edilməsi və sosial rihafın gücləndirilməsində vergidaxilolmalarının rolu mühümdür. Sahibkarlıq subyektlərinin ən çox müraciət etdiyi bu sahədə xidmətin yüksək keyfiyyət və kəmiyyət göstəricilərinə nail olunması üçün mütəmadi olaraq həm qanunvericilik bazası təkmilləşdirilir, həm də dünya praktikası tətbiq edilir. Ən uğurlu addımlardan biri də son illərdə yaradılan Vergi Ödəyicilərinə Xidmət mərkəzləridir ki, şəffaflıq, operativlik, əhatəlilik kimi səmərəli fəaliyyət prinsipləri ilə bütün təbəqədən olan vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır. Bu baxımdan Naxçıvanın ən yeni dövrünün dayanıqlı inkişaf konsepsiyası sayılan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da sahibkarlıq subyektləri tərəfindən vergi sahəsində könüllü əməletmə səviyyəsinin artırılması məqsədilə belə mərkəzlərin yaradılması mühüm vəzifə kimi qarşıya qoyulub. Artıq ötən dövrdə Naxçıvan şəhəri, Şərur, Ordubad və Babək rayonlarında Vergi Ödəyicilərinə Xidmət mərkəzləri fəaliyyətə başlayıb. Bu mərkəzlərin dövlətin vergi siyasətinin həyata keçirilməsində, sahibkarlıq subyektlərinin lazımi xidmətlərə əlçatanlığının təminində rolu, əhəmiyyəti barədə suallarımızı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəis müavini, Vergi ödəyicilərinə xidmətin təşkili və təhlil şöbəsinin rəisi Elçin Babayevə ünvanladıq:

***– Xoş gördük, Elçin müəllim. İstərdim, əvvəlcə Vergi Ödəyicilərinə Xidmət mərkəzləri nə üçün yaradılır sualına aydınlıq gətirək, bu mərkəzlərin təyinatı haqqında oxucularımıza məlumat verək.***

– Xoş gördük. Öncə qeyd edim ki, Vergi Ödəyicilərinə Xidmət mərkəzləri vergi ödəyicilərinin qəbulu, vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi məsələləri barədə onların məlumatlandırılması və izahat işlərinin aparılması, sualların cavablandırılması, elektron və şifahi xidmətlərin göstərilməsi zamanı vergi ödəyicilərinin rahatlığının təmin edilməsi və onlara göstərilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə yaradılıb. Vergi Ödəyicilərinə Xidmət mərkəzləri vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələrinin yerinə yetirilməsi, müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun təmin edilməsi üçün çox mühüm əhəmiyyət kəsb edir. Bu mərkəzlərin təyinatı vergi orqanlarının fəaliyyəti ilə bağlı (orqanın səlahiyyətlərinə dair) sualların birbaşa cavablandırılması və ya cavablandırılmaya qəbul edilməsi, əməliyyat xarakterli müraciətlərin birbaşa emalı və ya emala qəbul edilməsi, şikayət (məlumat, təklif) xarakterli müraciətlərin qəbulu, məlumatlandırma və məsləhət xidmətinin göstərilməsi, vergi ödəyicilərinin təqdim etdiyi sənədlərin vergi orqanlarına çatdırılmaq üçün qəbulu və hazır sənədlərin müraciət edən şəxslərə təqdim edilməsindən ibarətdir.

***– Bəs ölkəmizdə Vergi Ödəyicilərinə Xidmət mərkəzlərinin yaradılması prosesi nə zamandan başlanılıb? Sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılmasında həmin mərkəzlərin əhəmiyyəti nədən ibarətdir?***

– Vergi orqanları tərəfindən təqdim edilən xidmətlərin sayı və əhatə dairəsinin genişləndirilməsi bu sahədə daha təkmil sistemin qurulmasını şərtləndirib ki, bu da, öz növbəsində, ölkəmizin iri şəhər və rayonlarında Vergi Ödəyicilərinə Xidmət mərkəzləri yaradılması zərurətini ortaya çıxarıb. Buna uyğun olaraq vergi ödəyicilərinin bütün növ vergi xidmətlərini vahid bir mərkəzdən ala bilmələri, daha üstün xidmət standartlarının tətbiqi, vətəndaş məmnuniyyətinin artırılması, onlara elektron xidmətlərdən istifadə imkanlarının aşılanması, vergi orqanlarının müsbət imicinin yaradılması məqsədilə 2007-ci ilin may ayından etibarən mərhələli şəkildə Vergi Ödəyicilərinə Xidmət mərkəzlərinin yaradılmasına başlanılıb və hazırda 4-ü Naxçıvan Muxtar Respublikasında olmaqla ölkə üzrə 60-dan çox xidmət mərkəzi uğurla fəaliyyət göstərir. Bu mərkəzlər daha çox regionlarda, vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinə və vətəndaşlara xidmətlər təqdim edirlər.



Sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması, vergi ödəyiciləri ilə münasibətlərin şəffaf müstəvidə qurulması və vergi orqanlarının fəaliyyəti ilə bağlı müsbət imicin formalaşması vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətindən birbaşa asılıdır. Məhz xidmət mərkəzlərinin də yaradılmasının əsas məqsədi vergi ödəyicilərinə müasir standartlara uyğun vergi xidmətlərinin göstərilməsidir ki, bu da, öz növbəsində, vergi ödəyiciləri ilə münasibətlərin şəffaf müstəvidə qurulması və vətəndaş məmnunluğunun təmin edilməsində çox mühüm əhəmiyyət kəsb edir.

***– Xidmət mərkəzlərinə müraciət edən şəxslərə göstərilən xidmətlərin əsas üstünlükləri nədən ibarətdir?***

– Xidmət mərkəzləri müasir avadanlıqlar və sürətli kommunikasiya sistemi ilə təchiz edilib və burada vergi ödəyiciləri üçün lazım olan hərtərəfli zəruri şərait yaradılıb. Sahibkarlar Vergi Ödəyicilərinə Xidmət mərkəzlərinə müraciət etməklə vergi sahəsində mövcud olan bütün xidmətləri bir məkanda əldə etmək imkanına malik olurlar. Xidmət mərkəzlərində sahibkarlara dövrün çağırışlarına uyğun olaraq təhlükəsizlik tələblərinə uyğun şəkildə xidmətlər göstərilir. Onların təhlükəsizliyinin təmin olunması üçün bütün tələblər yerinə yetirilir. Xidmət mərkəzlərinə müraciət edən şəxslərin məmnunluğunu və rahatlığını təmin etmək məqsədilə bütün xidmət mərkəzləri növbə, qeydiyyat, videonəzarət, səsyazma və qiymətləndirmə (sorğu keçirmə) sistemləri ilə təchiz edilib. Qeyd olunan sistemlər müraciət edən şəxslərin hüquqlarının qorunmasında çox mühüm əhəmiyyətə malikdir. Həmçinin vergi ödəyicilərinə vergi qanunvericiliyi və inzibatçılığı, sığorta haqlarının hesablanması və ödənilməsinə münasibətdə sosial sığorta, işsizlikdən sığorta və tibbi sığorta qanunvericilikləri ilə bağlı izahatlar verilir, şəxsi vərəqələrindəki məlumatlara baxış imkanı yaradılır ki, bu da vergi ödəyicilərinin gələcəkdə maliyyə itkilərinə məruz qalmaması üçün vacibdir.

***– Bildiyimiz kimi, ölkə Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq olunub. Dövlət Proqramında sahibkarlıq subyektləri tərəfindən vergi sahəsində könüllü əməletmə səviyyəsinin artırılması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında Vergi Ödəyicilərinə Xidmət mərkəzlərinin yaradılması nəzərdə tutulub və nəticədə, bu gün artıq sizin də vurğuladığınız kimi, 4 belə mərkəz fəaliyyət göstərir. İstərdim, həmin mərkəzlərdə göstərilən xidmət növləri, yaradılan şərait barədə danışaq.***





– Əvvəlcə qeyd edim ki, muxtar respublikada fəaliyyət göstərən vergi ödəyiciləri üçün vergi xidmətlərinin əlçatanlığının daha da artırılması və könüllü əməletmə səviyyəsinin yüksəldilməsi məqsədilə 2023-cü ildə Naxçıvanda, 2024-cü ildə isə Ordubad, Şərur və Babək şəhərlərində vergi ödəyicilərinə xidmət mərkəzləri istifadəyə verilib, bununla da Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nın 8.10.10-cu yarımbəndi vaxtından əvvəl tam icra edilib. Bu mərkəzlərdə gün ərzində ayrı-ayrılıqda 150-dək vergi ödəyicisi və vətəndaşın qəbul edilməsi və onlara bir sıra xidmətlərin göstərilməsi mümkündür. Bunlara vergi orqanlarında uçot haqqında şəhadətnamənin və onun yeni nüsxəsinin, "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz"in, vergi, sığorta haqlarının hesablanması və ödənilməsinə münasibətdə sığorta qanunvericiliyinin (inzibatçılığının) tətbiqi ilə bağlı məlumatların verilməsi aiddir. Həmçinin ərizələrin tərtib edilməsinə köməklik edilməsi, ASAN imza sertifikatı, hazır sənədlərin təqdim edilməsi üzrə xidmətlərin göstərilməsi, elektron xidmətlərdən istifadəyə köməklik (Bəyannamələrin tərtib edilməsi və göndərilməsi, onlayn POS-terminalların qeydiyyatı, fiziki şəxsin uçotunun onlayn ləğvi, fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması, nəzarət kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması və sair) və digər xidmətlər də daxildir.

Xidmət mərkəzlərində vətəndaşların və vergi ödəyicilərinin müstəqil şəkildə xidmətləri yerinə yetirə bilməsi üçün kompüterlər və printer avadanlıqları ilə təchiz olunmuş özünəxidmət masaları vardır. Eyni zamanda burada vergi sahəsində yaranan sualların cavablandırılması üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzi (195) ilə birbaşa əlaqə yaratmaq üçün telefon aparatı da quraşdırılıb. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Vergi Ödəyicilərinə Xidmət mərkəzləri vasitəsilə vergi ödəyiciləri və sahibkarlar iş günlərində saat $9^{00}$-dan $18^{00}$-dək fasiləsiz qaydada müxtəlif xidmətlərdən istifadə edə bilərlər. Bununla yanaşı, mərkəzlərdə şəhid ailələri və Vətən müharibəsi qazilərinə, məhdud fiziki imkanlı şəxslərə növbədənkənar xidmət göstərilməsi təmin olunur. Həmçinin "Vergi orqanlarında könüllü fəaliyyətin təşkili Qaydaları"na uyğun olaraq Naxçıvanda vergi orqanlarında könüllülük fəaliyyəti genişləndirilir. Belə ki, Naxçıvan Şəhər Vergilər İdarəsinin 2 saylı, 3 saylı və 4 saylı ƏVİ-lərinin Vergi Ödəyicilərinə Xidmət mərkəzlərində könüllü gənclər fəaliyyət göstərir. Könüllülər xidmət mərkəzində vətəndaşların qarşılanması, növbə aparatlarından istifadə qaydalarının izah olunması, mövcud xidmətlər barədə məlumatların verilməsi, əlillərin daha asan xidmət almasına dəstək və onlara qayğı göstərilməsi, ərizələrin doldurulmasına kömək göstərilməsi, mərkəzdə ən çox müraciət olunan elektron xidmətlərin təmini, vətəndaşların məmnunluğunun öyrənilməsi və digər zəruri sorğuların keçirilməsi ilə məşğul olurlar.

***– Ötən dövrdə həmin mərkəzlərə nə qədər müraciət daxil olub, vətəndaş məmnunluğu hansı səviyyədədir?***

– Vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən 2024-cü ilin ilk 6 aylıq dövründə qəbul edilən şəxslərin və onlara göstərilən xidmətin sayında ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artımın olduğu müşahidə edilir. Belə ki, 2024-cü ilin 6 ayında Naxçıvan, Şərur və Ordubad şəhərlərində fəaliyyət göstərən Vergi Ödəyicilərinə Xidmət mərkəzləri tərəfindən, ümumilikdə, 17 min 683 şəxs qəbul edilib və onlara 22 min 922 xidmət göstərilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 27,2 faiz çoxdur.

Xidmət mərkəzlərində xidmətlərin göstərilməsi zamanı vergi ödəyiciləri və vətəndaşların məmnunluq səviyyəsinin ölçülməsi də xidmətin keyfiyyətinin qiymətləndirilməsi üçün çox vacib məqam olduğundan bu məsələ xüsusilə diqqətdə saxlanılır. Belə ki, 2024-cü ilin 6 ayı üzrə xidmət mərkəzlərində vergi ödəyicilərinə və vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq səviyyəsi 99,1 faiz olub.

***– Suallarımızı ətraflı cavablandırdığınız üçün təşəkkür edirik!***

✍ **Nail ƏSGƏROV**

# Daşınmaz əmlak üzərində 6 minə yaxın mülkiyyət hüququnun qeydiyyatı aparılıb

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən bu ilin yanvar-iyul aylarında Naxçıvanda daşınmaz əmlak üzərində 5947 mülkiyyət hüququnun qeydiyyatı aparılıb.

Nazirliyin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz çoxdur.

Yanvar-iyul aylarında fərdi yaşayış və bağ evi üzərində 2095, mənzil üzərində 969, torpaq sahəsi üzərində 2509, qeyri-yaşayış binası üzərində 90, qeyri-yaşayış sahəsi üzərində 261, əmlak kompleksi üzərində 22, çoxmənzilli yaşayış binası üzərində isə 1 mülkiyyət hüququnun dövlət qeydiyyatı aparılıb.



# Ordubad uzunömürlülərinin söhbəti ilə…

Lap əvvəllər, haradasa, ötən əsrin sonlarına qədər Azərbaycanda uzunömürlülərin sayı daha çox idi. Həmin illərin məlumatlarına baxanda görürük ki, ölkəmizdə hər yüz nəfərdən onu yaşı 90-ı ötmüş, hər min nəfərdən beşi isə yaşı 100-ü ötmüş insanlar olub. İndi də uzunömürlülərin sayı az deyil, ancaq müasir dövrümüzdə, daha dəqiq desək, xəstəliklərin, keyfiyyətsiz qidaların artdığı belə bir zamanda uzun ömrün meyarı da sanki dəyişib. Əvvəllər yaşı yüzü ötmüş insanlara uzunömürlü deyilirdisə, indi yaşı doxsanı, hətta səksəni ötmüş insanlar da uzun ömür sahibi hesab edilir…



Belə insanlardan Azərbaycanın incisi hesab etdiyimiz Ordubad rayonunda da var. Ordubad şəhərindən başlayaraq rayonun ən məşhur yaşayış yerlərinə, kəndlərinə səfər etsəniz, hər kənddə heç olmasa, yaşı doxsana çatmış, səksəni ötmüş ağsaqqal və ağbirçəkləri görəcəksiniz. Həmin nurani ağsaqqallardan, söz-söhbəti şirin insanlardan biri də Həbib Cəfərovdur. Onunla qədim Ordubad şəhərinin Sərşəhər məhəlləsində, elə müsahibimizin özü kimi uzunömürlü xan çinarın kölgəsində həmsöhbət olduq. Həbib babanın söylədiklərindən: "Hazırda doxsan yaşın astanasındayam. Deməli, nə az, nə çox düz 90 il bundan öncə bu qədim şəhərdə – Ordubadda dünyaya gözlərimi açmışam. Uşaqlığım çox çətin dövrlərə təsadüf edib. 1941-ci ildə başlayan Böyük Vətən müharibəsinin gətirdiyi dəhşətlər, aclıq və səfalət gözlərimin qarşısındadır. İki dayım müharibədə iştirak etmişdi, biri yaralı vəziyyətdə geri qayıtdı, digərindən isə bir parça qara kağız belə (müharibədə həlak olanların ailələrinə verilən sənədi nəzərdə tutur) gəlmədi. Bir sözlə, çox çətinliklər görmüşük. Xatırlayıram ki, anamız zəmilərdə taxıl biçildikdən sonra taxıldan geriyə qalanları yığıb gətirər və bizə ondan çörək hazırlayardı. Bu vaxtacan da o çörəyin dadı və qoxusu mənim xatirimdədir".

Həbib baba söhbət zamanı Ordubad rayonunun tarixinə də toxunur: "Ordubad rayonunun tarixi çox qədimdir, şəhərin tarixi isə digər yaşayış yerləri ilə müqayisədə daha da qədimdir. Böyüklərdən eşitmişik ki, vaxtilə Şah Abbas bu qədim şəhərə gəlib, hazırda dayandığımız qədim Sərşəhər məhəlləsində olub. Ordubad şəhərində belə qədim məhəllələrin sayı çoxdur. Ən qədimləri Sərşəhər, Ambaras, Zaviyə və digər məhəllələrdir. Nə yaxşı ki, bu gün də o qədim yaşayış məskənləri öz tarixiliyini qoruyur. Çünki tarixi abidələr xalqımızın, soydaşlarımızın həyatını, onların düşüncə tərzini yaşadan və onu gələcək nəsillərə çatdıran saxlanc yeridir. Bax, bu məscidi görürsünüzmü (Sərşəhər məhəlləsindəki qədim Sərşəhər məscidinə işarə edir), bu tikili neçə əsrdir ki, bu yerdə məğrurcasına dayanıb. Bu tikili, hər şeydən əvvəl, ordubadlıların dini, milli-mənəvi dəyərlərinə necə bağlı olduğunu, onu necə qoruyub saxladığını göstərir. Ordubadda belə tarixi tikililər çoxdur və biz də əlimizdən gəldiyi qədər çalışırıq ki, onları qoruyaq. Unutmaq olmaz ki, şeir, söz ədəbiyyatı ayaqda tutduğu kimi, tarixi tikililər, binalar, məktəb-mədrəsələr də əcdadlarımızın əli ilə qurulub yaradılan böyük bir tarixi ayaqda saxlayır. Elə şeirdən söz açılmışkən; icazə verin sizə bir bənd şeir də deyim. Bu şeiri hələ cavanlıqda əzbərləmişdim, cavanlıq deyəndə, haradasa 20-25 il bundan əvvəl. Adil Qasımovun şeiridir:

*Nə gözəldir Ordubadın havası,*
*Alimlər, şairlər doğma balası,*
*Dübəndi dağ çayı, Əfqan qalası,*
*Tarixlərdən yadigardır Ordubad".*

Həbib baba ilə söhbətimizi yekunlaşdırıb Ordubad rayonunun kəndlərinə üz tuturuq. Bilirik ki, Həbib Cəfərov kimi bu rayonun kəndlərində də yaşı 90-a çatmış, hətta 90-ı ötmüş neçə-neçə sakin var. Və onların hər biri, haradasa, bir əsrlik tarixi dövrü görüb mənimsəmiş, xatirələri yaddaşlarına həmişəlik həkk etmiş canlı şahidlərdir.

Hələ rayona gəlməmişdən bizə məlumat verilmişdi ki, rayonun Dırnıs kəndində uzun illər kənd məktəbində müəllimlik etmiş Adil baba yaşayır. Onun da yaşı 90-ı ötüb; 1932-ci ildə anadan olub. Adil Möhsünov bizə əvvəlcə Dırnıs sözünün etimologiyasını izah edir. Onun sözlərinə görə, "dırnıs" qədim dillərdə dar keçid, dar yol, bəzi mənbələrdə isə bir keçid, yəni yaşayış məskəninin bir giriş qapısı mənasında işlənib. Müsahibimiz onu da qeyd edir ki, Dırnıs kəndi Ordubad rayonunun, habelə bütün Naxçıvan diyarının ən gözəl kəndlərindən biridir. Bura çox qədimdən insan məskəni olub. Yaşı min ildən artıq olan bu kənddə türkdilli alban tayfaları yaşayıb. Təəssüf ki, tarixi mənbələrdə bu kənd haqqında məlumat çox azdır. Çünki kənd həm əsas ticarət yollarından kənarda, həm də geosiyasi cəhətdən az əhəmiyyətli nöqtədə yerləşir…

Adil Möhsünov ötən illərə nəzər salaraq deyir ki, ölkəmizin hazırkı mövqeyi və siyasi yolu keçmiş dövrlərlə müqayisə edilməyəcək dərəcədə inkişaf edib, müasirləşib: "Mən sovet hakimiyyətinin hakim olduğu illərin böyük bir dövrünə şahidlik etmişəm. İlk əmək fəaliyyətimə o illərdə başlamışam – ötən əsrin 50-ci illərində. Onda, həqiqətən də, cəmiyyətin düşüncə tərzi, yaşayış səviyyəsi fərqli idi. İnsanların bir-birinə olan münasibəti tamam başqa cür idi. Xatırlayıram ki, müharibə vaxtı ana-nənələrimiz hər gün kənddə bir evdə cəm olub corab, papıc, köynək, yun şal toxuyub cəbhəyə yollayardılar. Bəlkə də, toxuduqları isti geyimlər heç öz övladlarına çatmırdı, yəni analar bilmirdi ki, gözünün nurunu ələyib toxuduğu bu corab kimə qismət olacaq. Ancaq yenə də böyük şövqlə çalışırdılar, toxuyurdular, tikirdilər… Çünki insanlarda vətənpərvərlik hissi çox güclü idi. Arxa cəbhənin bütün yükü qadınlarımızın üzərində idi".



Ömrünün 50 ildən çoxunu müəllimlik peşəsinə həsr edən Adil baba deyir ki, illər ötdükcə insanların bir zamanlar əziz tutduğu dəyərlər də sanki gözdən düşür. Müasir dövrün tələbləri insanlar arasında soyuq münasibətlər yaradır. Böyüklərlə kiçiklər arasında münasibətlər əvvəlki kimi hörmətə, ehtirama söykənmir: "Müəllim işlədiyim illər ərzində şagirdlərimdən tez-tez eşidirdim ki, onlar da, elə bizim şagird olduğumuz dövrlərdə olduğu kimi, müəllimi böyük bir ilahi qüvvə, insanı, insanlığı xilas edən fövqəlbəşər varlıq hesab edirdilər. Lakin indi şagirdlərə baxırsan, onların müəllimləri ilə olan münasibətinə baxıb təəssüf hissi keçirirsən. Səbəb çox sadədir: dəyərlərimizi qoruya bilmirik. Mən böyük məsuliyyətlə deyirəm ki, müəllimi savadsız olan bir ölkə heç bir halda inkişaf edə bilməz. Çünki müəllimi də, həkimi də, vəkili də yetişdirən müəllimdir. Məmləkətin inkişafı və tərəqqisi bilavasitə müəllimin əməyindən asılıdır".

Adil baba deyir ki, ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvanın son 100 ildə keçdiyi tarixi yol olduqca şərəflidir. Çünki bu illər ərzində; işğalların, müharibələrin tüğyan etdiyi bir zamanda Naxçıvanın öz ərazi bütövlüyünü qoruyub saxlaması, sözün həqiqi mənasında, böyük tarixi nailiyyətdir: "Keçmiş SSRİ-nin tərkibində olanda ölkəmiz, eləcə də muxtar respublikamız çox ağır sınaqlarla üzüzə qalmışdı. O illərdə məsul vəzifələrə sovet hökuməti daha çox erməniləri təyin edirdi. Onlar da vəzifələrindən sui-istifadə edərək bütün yollara əl atıb Azərbaycanı parçalamaq, məhv etmək istəyirdilər. Tariximizi vərəqləyin; bir baxın erməni Şaumyanın, Mikoyanın xalqımızın başına gətirdiyi oyunlara. Yalnız ziyalılarının yox, bütövlükdə, ermənilərin azərbaycanlılara vurduğu yaralara bir baxın, görün xalqımız necə müsibətlərlə üz-üzə qalıb. Mənim uşaqlıq xatirələrimdə bir-iki hadisənin izləri hələ də durur. Onlardan biri də rəhmətlik anamın danışdığı hadisələrdən biridir. Anam deyirdi ki, 1918-ci ildə ermənilər Dırnıs kəndini atəşə tutmuşdular. Onlar bu kəndi iki dəfə yandırıblar, evləri viran ediblər. Mən siz gənclərə tövsiyə edirəm ki, gələcəyə ümidlə baxın, ancaq heç zaman keçmişi unutmayın, unudulmağa da icazə verməyin".



Möhsünovlar ailəsi ilə sağollaşıb növbəti müsahibimizlə görüşmək üçün Anaqut kəndinə üz tuturuq. Qeyd edim ki, Anaqut kəndi də Ordubad rayonunun müasir kəndlərindən biridir. Dırnıs kəndi ilə qonşuluqda yerləşən bu yaşayış məskəni Vənənd çayının (Arazın qolu) sahilində, dağətəyi ərazidə yerləşir. Tarixi qaynaqlarda adı Danaqırd kimi də qeydə alınmışdır. Kənd sakinlərinin söylədiyinə görə, danaqırt balaca yabanı otdur. Kənd öz adını ərazinin bitki örtüyündən, daha dəqiq desək, danaqırt bitkisindən almışdır. Sonralar əhali arasında bu ifadə təhrif olunaraq Anaqut halına salınmışdır.

Növbəti həmsöhbətimiz, Anaqut kənd sakini Mirvari nənənin də yaşı səksəndən az deyil. Ömür-gün yoldaşı Muxtar kişi ilə ailədə beş övlad böyüdüb. Tək oğlu Fəxrəddin Bağırov Birinci Qarabağ müharibəsi iştirakçısı olub. Döyüşlərdə böyük şücaət göstərib. Mirvari nənənin sözlərinə görə, ermənilər onu öldürənə, nənənin təbirincə desək, Fəxrəddinin başını gətirənə böyük mükafat təyin etmişlər: "Oğlum müharibədə canla-başla iştirak etmişdi, yaralanmışdı. Atası da, mən də ona dedik ki, müharibəyə getmə. Çünki ailənin tək ümidi sənsən. Dedi ki, mən döyüşdən qaça bilmərəm, Vətən dardadır. Getdi və sonuna qədər döyüşlərdə iştirak etdi. Sağ-salamat qayıtdı, ancaq bir neçə il bundan əvvəl dünyasını dəyişdi. Övlad itkisi çox ağır dərddir. Valideyn itkisinə bir yolla dözmək olur, təsəlli tapır insan. Ancaq övlad itkisi başqadır… Mən özüm atasız böyümüşəm, çünki atamı 1941-ci ildə Böyük Vətən müharibəsinə apardılar. O, döyüşə yollanandan bir neçə ay sonra mən doğulmuşam. Anam bizi çox çətinliklə dolandırıb. Uşaqlığımız ağır dövrlərə təsadüf edib. Ancaq heç zaman aclıq, yoxluq çəkməmişik. Anamızla baş-başa verib özümüzə gün-güzəran qurmuşuq. Əslində, mənim doğma kəndim Unusdur – Ordubad rayonunun Unus kəndi. Atam da qərbi azərbaycanlıdır. 1918-ci ildə öz el-obalarından qaçaq düşüblər. Hətta mənim bibim yolda – "ayı cənnəbi" deyilən ərazidə donvurmadan ölüb. Onun adını mənə qoyublar: Mirvari. Bax belə bir ömür yaşamışam, oğul. Taleyimdən gileylənmirəm. Yoldaşım mənə, övladlarıma çox yaxşı baxıb. Səbirlə, təmkinlə, dözümlə bir ailənin yükünü ayaqda saxlamışıq. İndi o da həyatda yoxdur, ancaq xatirəsi hər zaman mənimlədir. Dolanışığımdan, övladlarımdan heç bir şikayətim yoxdur. Yaşım 80-i ötsə də öz işimi özüm görməyə çalışıram, heç kimə yük olmaq istəmirəm. Siz də sağ olun ki, gəlib bizim kimi ağbirçəklərin, ağsaqqalların kefini xəbər alırsınız, halını soruşursunuz".

Bizi böyük qonaqpərvərliklə qarşılayan ailə ilə sağollaşırıq. Yola düşmək vaxtıdır artıq. Yolboyu düşünürəm ki, yazıya köçürəcəyimiz maraqlı söhbətlər, fərqli həyat hekayələri, yəqin ki, bizim kimi oxucularımız üçün də maraqlı olacaq. Bu səbəbdən avtomobilimizə əyləşib Ordubad rayonunun bir-birindən gözəl, axarlı-baxarlı kəndlərini geridə qoyaraq şəhərə tələsirik. Bir daha görüşmək ümidi ilə yurdumun incisi, əziz Ordubad…

**Məcid RƏŞADƏTOĞLU**

## Yerli sahibkarların eko qablaşdırmaya təşviq olunması istiqamətində işlərə başlanılıb

Naxçıvanda fəaliyyət göstərən yerli sahibkarların ekoloji qablaşdırmaya keçidi və AZS İSO 14001-2021 "Ətraf mühiti idarəetmə sistemləri" standartlarının tətbiqinə təşviq edilməsi diqqətdə saxlanılır.

Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Naxçıvan Sahibkarlar Konfederasiyası ilə birlikdə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində COP29 tədbirlərinə uyğun olaraq sahibkarlıq subyektlərinin ekoloji qablaşdırmaya təşviq olunması məqsədilə maarifləndirici tədbir keçirilib.

20-dən artıq sahibkarlıq subyektinin iştirak etdiyi tədbirdə iştirakçılara məlumat verilib ki, bu gün hər bir sahibkar mövcud istehsal sahələrində yaranan tullantıların təkrar emala göndərilməsi, eləcə də tullantısız istehsala cəlb edilməsi imkanlarının araşdırılmasını diqqətdə saxlamalıdır. Nəzərə alınmalıdır ki, istehsalatda istifadə olunan ekoloji qablaşdırma üçün xammal təkrar emal edilə bilir və bioloji parçalana bilən olduğundan qablaşdırmalar üçün ideal seçimdir. Qeyd olunub ki, ekoloji təmiz qablaşdırmaya ehtiyacı olan məhsulların müəyyənləşdirilməsi, biznes subyektlərinin bu sahədə mövcud olan beynəlxalq təcrübələrə yiyələnməsi və beynəlxalq milli standartların tədbiq olunması gələcəkdə yerli məhsulların yeni bazarlara çıxış imkanlarını da artıra bilər.



Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb.



# 100 ilin qəhrəmanları

*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Culfa rayonunun Yaycı kəndindən olan şəhidimiz Rəşad Hüseynlinin anası Lətifə Hüseynovanın, Culfa rayonunun Yaycı kəndindən olan şəhidimiz Sahib Məmmədovun anası Çiçək Məmmədovanın və Culfa şəhərindən olan şəhidimiz Ceyhun Dünyamalıyevin anası Gülnarə Dünyamalıyevanın övladları haqqında xatirələri yer alıb.*

## Rəşad Ramiz oğlu Hüseynli

*(21.05.2000-15.09.2022)*

## Vətən yolunda ölüm şərəflidir





Rəşad sakit uşaq olub. Atası xaricdə işləyirdi deyə özüm tək məşğul olurdum təlim-tərbiyəsi ilə. Sözə baxan uşaq idi. Bir dəfə olsun nə atasının, nə də mənim üzümə qayıtdı. Şəkil çəkdirməklə arası olmazdı. Şəhid olandan sonra oradan-buradan topladıq o olan şəkilləri.

Hərbi xidməti başa vurduqdan sonra Dövlət Sərhəd Qoşunlarına sənəd verib oraya daxil olmuşdu. Bu xəbəri böyük sevinclə mənə çatdırdı. Ondan bir müddət sonra da çevik əməliyyat taborunun rabitə bölüyünə yazılıb.

Bir gün dedim ki, anan qurban, mən səni heç formada görməmişəm, mənə şəklini göndər. Formada bir neçə şəkil çəkib göndərdi. Baxdım, dedim ki, bəs gözlərin çox yorğun görsənir. Dedi ki, meşədə təlimdəyik. Ay yarım keçmişdi, evə gəldi. 15 günlük icazəsi vardı. Sonra mən Bakıya getdim, orada dayısıgildə idik. Söhbət edirdik ki, içəri girdi. Az sonra iş yerindən çağırdılar, geri qayıtmalı oldu. O ərəfədə nə qədər zəng edirdiksə, danışa bilmirdik. Ayın 12-si televizoru açdım ki, Cəbrayıldan xəbərlər verilir. Narahatlığımız artmağa başladı. Gümanımız çatan hər kəsə zəng etdik. Qohumumuz var, onun da qardaşı Cəbrayılda olur. Dedik ki, Rəşadla əlaqə saxlasın. O da dedi ki, onu axtarmasınlar, özü zəng edəcək. Ayın 15-i saat $11^{00}$-da zəng gəldi. Açdım ki, Rəşad... Əl-ayağım əsdi, danışa bilmirdim. Özümü toplayıb, birtəhər danışdım. Dedi ki, kim desə “Rəşad yaralanıb” inanma, desələr, “Rəşad əsir düşüb” inanma. Günlərdir ki, narahatlıqdan süfrəyə də normal oturmurduq. Qalxıb sevincək süfrəyə əyləşdik həmin gün. Qonum-qonşuya da xəbər etdim ki, Rəşad zəng etdi, danışdıq. Axşam saatlarında yaxınlarımız Rəşadın şəklini paylaşmağa başladılar. Bir az sonra balaca oğlumun sinif yoldaşı Harun oğluma bir şəkil atıb ki, bax, gör bu sənin qardaşındır? İnanmaq istəmədim bu xəbərə. Çünki 4 saat idi, oğlumla danışmışdım. Nəzir-niyaz dedik. Amma xəbəri eşidənlər evə gəlirdilər, mən isə qəti şəkildə inanmırdım. Saat 5 idi, zəng etdim balaca qardaşıma, Cəbrayıla gedirdi. Telefonda mənə oğlumun bu acı xəbərini verəndə yenə inanmaq istəmədim. Çünki o məni inandırmışdı ki, sağ-salamat gələcək. Ancaq onu bayrağımıza bükülü gətirdilər. Oğlum da daxil olmaqla bütün şəhidlərimizin ruhları şad olsun.



## Sahib Yaşar oğlu Məmmədov

*(13.11.1989-19.10.2020)*

## Oğlum mənim fəxrimdir





11 il idi ki, Qubada işləyirdi. 3 gün idi, sonbeşik qızı doğulmuşdu ki, Sahibi işə çağırdılar. Uşaq 9 aylıq olanda dedim ki, bala, orada sənə ev verirlər, ailəni də apar yanında saxla. Uşaqlardan bu qədər ayrı qalmaq olmaz. Dedi ki, ana, bəs sən? Dedim ki, məni düşünmə, əsas odur ki, siz rahat olun. Atası ilə qardaşı xaricdə işlədiyi üçün istəmirdi, mən tək qalam. Döyüşlərin başladığı ərəfədə də danışırdıq. Deyirdi ki, Vətən yolunda ölüm şərəfli ölümdür. Dedim ki, elə demə, 3 qızın yolunu gözləyir. Bir dəfə güllə qolunu sıyırmışdı. Hospitala düşmüşdü. Onda danışdıq. Dedi ki, bilirəm, əzab çəkirsən, amma oğlunla fəxr elə. Qonşular da həmişə razılıq edirdilər. Bir dəfə olsun qəlbimə dəymədi. Sevdiyi qız da var idi. Elə o qızla da ailə qurdu. Hər gün oğlumun fotoları ilə təsəlli tapıram. O da mənə çox bağlı idi. Tək olduğum üçün daha da nigaran qalırdı. Öz ailəsinə, balalarına da mehriban idi. Balaları da özü kimi çox mehribandırlar. Gəlinimdən yer-göy qədər razıyam ki, Sahibin yadigarlarını düzgün tərbiyə edir, mənə qarşı məhəbbətlə böyüdür.




Axırıncı dəfə sentyabrın 17-si Sahibi evə buraxmışdılar. Bir gün qalıb səhər tezdən getdi. 27-si müharibə başladı, axırıncı dəfə oktyabrın 17-si danışdıq. Günorta namazı qılırdım ki, ondan zəng gəldi. Danışdıq. Dedi ki, ana, sonra birdən alınmaz danışmağımız, dedim, bir kef-hal tutum, nigaran qalmayasan. Dedim ki, mən də indi namaz qılıb səni düşünürdüm. Qayıtdı ki, ana, dua elə. Dedim, bala, hər birinizə duaçıyam. Sağollaşdıq, bir də təkrar zəng gəldi. Sahib idi yenə. Dedi ki, ana, bizi yuxarı qaldırırlar, danışa bilməsək, narahat olma.

İndi ancaq yuxuma gəlməyini istəyirəm. Dörd dəfə yuxuda görmüşəm. Heç olmasa, yuxuda qucaqlayım. Ancaq şəkillərini qucaqlaya bilirəm. Bir dəfə olub ki, yuxumda bərk-bərk qucaqlamışam. Daha yuxuma da gəlmir...

Ana üçün oğul itirmək çox ağırdır. Təsəllim odur ki, torpaqlarımızın azad edilməsi yolunda şəhid olub.



## Ceyhun Zeynal oğlu Dünyamalıyev

*(15.10.1996-9.11.2020)*

## Azad edilən torpaqlarımızda ayaq izləri var



Ceyhun çox savadlı uşaq idi. Şəklini məktəbdə şərəf löhvəsinə vurmuşdular. Sakittəbiətli, mehriban idi. Qəti qərar vermişdi ki, hərbçi olacaq. İmtahanlardan yüksək bal toplayaraq hərbi məktəbə daxil oldu. Çox sevinirdi. Buradan yüksək qiymətlərlə Bakıya akademiyaya getdi. 31 tələbə arasında birinci yerə çıxmışdı. Diplomunu da gətirib göstərdi ki, ana, bax, 31 mötərizə içərisində də 1 yazılıb. Yoldaşları da ondan razılıq edirdilər. Bitirdikdən sonra saxladılar məktəbdə dərs desin, istəmədi.

İmkan düşdükcə danışırdıq. Arxayın edirdi məni. Deyirdi ki, qələbə bizimdir. Tezliklə görüşərik. Sonuncu dəfə noyabrın ikisi danışmışdım. Zəng etmişdi mənə. Kef-hal tutduq. Şuşaya gedəcəyini dedi. Gecə saat 11 idi, yenə zəng vurdu. Demək, yoldaşları ilə bir-bir zəng edib ana-atalarından halallıq istəyirmişlər. Mənə də utanır desin, halal et. Ancaq bunu dedi ki, ana, qalxırıq Şuşaya. Mən də xeyir-duamı verdim. Bilməzdim ki, oradan sağ qayıtmayacaq. Sonra mən anladım ki, Ceyhun mənə nəsə demək istəyirdi. Tez-tez zəng etməyə başladım. Ancaq zəng çatmırdı. Noyabrın 3-ü telefonla əlaqə saxlaya bildim. Alo, alo... deyə yüksək səslə danışmağa çalışırdı. Silahların səsi imkan vermirdi danışaq. Son danışığı imiş demə... Noyabr ayının 9-u şəhid olub. Bizə kimsə nəsə demirdi. Ayın 11-nə kimi bilmədik. Hər yerdən maraqlandıq, gözləyirdik ki, Ceyhun gələcək. Sonra şəhid olma xəbərini bildik. Ayın 7-si yaralansa da, yaralı halda döyüşüb. Qanaxmadan dünyasını dəyişib. Ancaq qəhrəman kimi döyüşüb. Öndə olub. İşğaldan azad edilən torpaqlarımızda ayaq izləri var. Nə etmək olar? Demək, oğlumun və yoldaşlarının taleyinə şəhidlik yazılıbmış. Bu gün təsəllimi həm də



onda tapıram ki, oğlumun adını qızımın övladı daşıyır.

Söz bəşəriyyətin ən böyük kəşfidir. O, sərhədsizdir, irqi, dini və milli mənsubluğu yoxdur, bütün insanlara məxsusdur. Əsrlər arasında körpü, mədəniyyətlər arasında rabitədir... Yeri-göyü, onların arasındakı canlı aləmi var edən Uca Yaradan həm də sözün vasitəsilə təzahür edib, özünü tanıdıb. Söz olmasa idi, dünya yarımçıq olardı, həmişə bir yanımız boş, aramsız qalardı. Söz, əslində, müqəddəsdir, onun müqəddəsliyi haqqa, həqiqətə, geniş mənada isə insanlığa xidmətə yönəlib (yönəlməlidir!) Buna görə də böyük söz sahibləri hər zaman dünyamızın gözəlliyi, insanların xoşbəxtliyi uğrunda mübarizə aparıblar, yazıb-yaradıblar. Yollar fərqli olsa da, əsl və ümdə məsələ bu olub – insanlığa xidmət. Bu mənada, sözün böyük ustadı, fəlsəfi fikir tariximizin nəhənglərindən Məhəmməd Füzuli yaradıcılığı, eyni zamanda onun bir şəxsiyyət kimi yaşam tərzi insanlıq üçün böyük bir tədqiqat obyektidir. Bir sözlə, insanlığın qurtuluş resepti Füzuli şəxsiyyətində və həyata baxışında cəm olub.

Məhəmməd Füzuli

530



# Füzuli nə istəyirdi?

## Onu Nizami və Nəsimi ilə bağlayan nə idi?

Kimdir söz mülkü ordudan böyük Məhəmməd Füzuli? Bu suala aydınlıq gətirmək üçün bir az geriyə, böyük söz ustadları Nizami və Nəsimi yaradıcılığına baxmaq lazım gəlir. Çünki Füzulinin Nizami və Nəsimiyə olan nisbəti, əslində, böyük yunan filosofları Sokratın Platona və Platonun da Aristotelə nisbəti kimidir. Sokrat Platonun, Platon isə Aristotelin müəllimi olub. Nizami-Nəsimi-Füzulini yunan filosofları ilə müqayisə etməyimiz həm də Nizami, Nəsimi və Füzulinin əsl həqiqətdə filosof, cəmiyyətşünas alim olmaları ilə bağlıdır. Üsul olaraq fərqli yollarda irəliləsələr də, bir ümdə məsələ – insanın xoşbəxtliyi, ədalətli cəmiyyət uğrunda mübarizə nöqteyi-nəzərdən Nizami Nəsiminin və Nəsimi də Füzulinin ustadıdır, bu üç böyük nəhəng ideoloji cəhətdən bir-birinin davamçısıdır.

Nizami ədalətli cəmiyyət üçün "yuxarıların" – hakim təbəqənin rolunu əsas tutub, onların ədalətli olacağı təqdirdə cəmiyyətin, dolayısı ilə, insanların xoşbəxt və firavan yaşayacağına inanıb. Bu ideya – fəlsəfi xətt onun yaradıcılığının qayəsini təşkil edib. Nizami istəyinə nail oldumu? Əlbəttə, bunu təsdiqləmək və yaxud da tamamilə inkar etmək doğru olmazdı. Nizaminin inandığı və tətbiq etdiyi yoldan fərqli olaraq Nəsimi isə "aşağıları", bəlkə də, daha düzgün təbir bu cür olar: bütün insanları onun böyüklüyünə, aliliyinə, müqəddəs varlıq olmasına inandırmaq yolunu tutmuşdu. Nəsimi inanırdı ki, insan müqəddəs varlıqdır, ona zülm etmək, əziyyət vermək olmaz. O bunun fərqində olmalıdır. Beləliklə, öz böyüklüyünü dərk edən insan güclü olacaq, ona əziyyət edilməsinə izin verməyəcək. Və bu yol-üsul insanlığı qurtuluşa çatdıracaq, insana qarşı zülm aradan qalxdıqdan sonra cəmiyyətlərə ədalət hakim olacaq, insanlar xoşbəxt yaşayacaqlar. Nəticədə, nə oldu? Nəsiminin dərisini diri-diri soydular. Amma onun bu yaradıcılıq istiqaməti insanlığı müəyyən qədər oyatdı, bu gün və gələcəkdə də bəşər övladının xoşbəxtliyinə xidmət edəcək.

Nizami və Nəsiminin insanlığı qurtuluşa çatdırmaq üçün söz meydanındakı mübarizəsi onların mənəvi davamçısı olan Füzuli fəlsəfi fikri ilə yeni mərhələyə yüksəldi. Mövlana ləqəbli Məhəmməd Füzuli yaradıcılığının devizi "Dünyanı sevgi xilas edəcək!" oldu. Bəli, Füzuli insanoğlunun qarşılaşdığı ağrı-acıların, müharibələrin, hər cür şər işin təməlində sevgisizliyin, insanların bir-birinə qarşı olan nifrətinin dayandığını görür, duyur və bunun məlhəmini öz yaradıcılıq amalına çevirirdi. Amma dahi Füzuli fəlsəfi baxışlarından danışmazdan əvvəl onu qeyd edək ki, bu böyük şəxsiyyət nəinki öz sözü ilə insanlığa xidmət edib, ona doğru yolu göstərib, o həm də yaşadığı həyat tərzi ilə bənzərsiz nümunə olub.

Bu gün dünyamızda zəngin həyat tərzi aludəçiliyinin tüğyan etdiyi, mənəviyyatın deyil, maddiyatın əsas götürüldüyü yanaşma və münasibətlərin cəmiyyətləri uçuruma sürüklədiyi bir düzəndə yaşayırıq. Bu düzəndən bir anlıq geriyə dönüb Füzulinin yaşadığı həyat tərzinə nəzər yetirdikdə olduqca sadə, sufiyanə bir ömür bizi qarşılayır və bu yaşam tərzi böyük şəxsiyyətin nə qədər bənzərsiz bir insan olduğunu bizə bəyan edir. Bu qədər böyük istedad sahibi saraylarda, zənginlik içərisində yaşaya bilməzdimi?! Yox, o belə həyatı istəmədi və Sultan Süleyman Qanuninin ona təyin etdiyi 9 axça təqaüdlə ömrünü başa vurdu (bu təqaüdü də heç əməlli-başlı ala bilməmişdi).

Bütöv bir şəxsiyyət kimi Füzulinin söz ordusu bizə bu mətləbləri öyrətməyə çalışıb: İnsan övladı hər bir məsələdə mərkəzə özünü yerləşdirdikcə, özündən başqasını görmədikcə (eqoizm) dünyamız daha da pisləşəcək, qanlı qırğınlar, müharibələr meydanına çevriləcək. Eqoizm xəstəliyindən uzaqlaşıb insanları sevə bilsək, ən azından onları anlamağa çalışsaq, daha xoşbəxt bir dünyada yaşayarıq. Başqa bir deyişlə, bu gün dünyada xeyir üçün çalışan qüvvələrin humanizm çağırışları mənbəyini sevgi dəryasından götürür. Füzulinin həyat fəlsəfəsi, hər şeydən əvvəl, insanı, onun xoşbəxtliyini düşünməyə çağırış edir. Çünki insan yalnız yeyib, içib, gününü keçirməməlidir, bu xüsusiyyətlər heyvanatda da var, hətta tutuquşuya təlim keçib ona danışmağı da öyrətmək mümkündür. Belə isə insan olmaq düşünməkdən başlayır. Düşünən insan isə sevgini axtarmalı, sevgi uğrunda mübarizə etməlidir.

Füzulinin həyatla bağlı fəlsəfi fikirlərinin mərkəzində dayanan sevgi hissi iki insanın bir-birinə olan məhəbbəti ilə çərçivələnmir. Heç Füzuli deyəndə ağlagələn "Leyli və Məcnun" poemasının ana xəttini də, əslində, bu qayə təşkil etmirdi. Həmin əsrdə insanların sevgisinə maneçilik törədən adət-ənənə, köhnə baxışlar və məhdud görüşlər tənqid olunur. "Leyli və Məcnun" əsəri ilə dahi söz sərrafı insanlığı kölə halına salan, mütiləşdirən hər şeyi tənqid edərək azadlığı, bu azadlığın əsas göstəricisi olan sevgini, məhəbbəti ön plana çıxarmaq istəyib. Yəni "Leyli və Məcnun"la Füzuli bizə göstərir ki, insan hisslərini, düşüncələrini azad şəkildə ifadə edə bilmirsə, orada sevgi yoxdur, sevgi yoxdursa, cəmiyyət də viran olacaq (necə ki Leyli və Məcnunla yanaşı, onların ailələrinin həyatları da viran oldu).

Füzuli eşqlə bağlı fəlsəfəsini özünün bir qəzəlində göstərdiyi biçimdə bizə anladır: həqiqət yolunun yolçusu məqsədinə nail olmaq istəyirsə, gedəcəyi yolda ancaq eşqi rəhbər tutmalıdır. Çünki o yolu işıqlandıran da, o yolda yolgöstərən də yalnız eşq nurudur. Ariflərin nəzərində aşiqi (insanı) ağıl yox, eşq idarə edər. Eşq elə bir kamil, tamamlanmış, yetkinləşmiş nəşədir ki, elə bir təsiredici qüvvədir ki, meydə hərarət göstəricisi, neydə isə sədanın təsiri həmişə və yalnız ondadır. Vəhdət vadisi həqiqətdə, əslində, eşq məqamıdır. O səhrada sultanla gəda şəxslənməz (varlı ilə yoxsul fərqlənməz, hamı birdir). Birlik tənhalığının sirrinə məhrəm olanlar aşiqi məşuqdan, məşuqu aşiqdən ayıra bilməzlər.

Füzulinin insanlığı xilasa çatdıra biləcək, onun qurtuluşunun əsas vasitəsi olan eşq-məhəbbət anlayışına həsr etdiyi irili-xırdalı onlarla əsəri var. Ümumiyyətlə, Füzuli yaradıcılığını biz bəsirət gözü ilə görməyə çalışsaq, onda məqsədimizə (Füzuli də öz məqsədinə) çatmış olarıq. Çünki dünyaya sevgi hisslərini aşılayan Füzuli qurtuluşu da onda görüb. Dahi sənətkarın qənaəti də, bu mənada, tamamilə doğrudur. Kim içərisində sevgi, eşq-məhəbbət anlayışının olmadığı bir gözəllik, yaxşı nəsnə göstərə bilər?! Elə bir anlayış varmı ki, orada sevgi olmasın, amma müsbət məqamları özündə ehtiva etsin?! Cavab, xeyr!..

Biz təkcə Füzulini yox, bütün ədəbiyyatı bəsirət gözü ilə oxumalıyıq. Söz sərrafları da bizdən bunu gözləyiblər. Belə olan halda, kim bilir, nə qədər sirli mətləblərdən agah olacağıq. Görmədiyimiz, duymadığımız neçə-neçə qapılar üzümüzə açılacaq.

**Anar QASIMOV**
*Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin müəllimi*

# Səhnənin görünməyən qəhrəmanları

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı fəaliyyət göstərdiyi müddətdə qarşıya qoyulan vəzifələri yerinə yetirməyə səy göstərir və buna nail olur. Bir məsələni də xüsusi vurğulamağı lazım bilirik. Məsələ ondadır ki, uşaq və kukla teatrlarının daşıdığı funksiya, bu mədəniyyət ocaqlarındakı iş prinsipi digər teatrlardan xeyli fərqlidir və bir qədər də çox zəhmət tələb edir. Uşaqlarda müsbət insani və iradi keyfiyyətlər formalaşdırmaq, böyüklərə hörmət, kimsəsizlərə qayğı, mənfiliklərə nifrət hissləri aşılamaq kimi vəzifələri yerinə yetirməli olan belə teatrlarda çalışmaq sənət adamlarından uşaq dünyasını dərindən bilməyi tələb edir.

Bəhs edəcəyimiz teatrda da yaxşı fəaliyyət üçün hərtərəfli şərait yaradılıb. Ancaq bu yazımızda həmin teatrda tamaşaçıların səhnədə görmədikləri, ancaq tamaşanın ərsəyə gəlməsində böyük əməyi olan sənət adamları barədə oxucularımıza söhbət açmaq istəyirik.

Gedəcəyimiz ünvan qəzetimizin, necə deyərlər, bir addımlığında yerləşir. Teatrın direktoru, Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbov bizi səmimiyyətlə qarşılayır, burada çalışan "gözəgörünməzlər", onların fəaliyyəti barədə ətraflı məlumat verdikdən sonra yazımızın qəhrəmanları ilə görüşürük. Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının baş rəssamı Rəfael Qədimov Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Rəssamlar Birliyinin üzvüdür. O, teatrda fəaliyyətə 1990-cı ildən butafor kimi başlayıb, indi isə baş rəssam kimi fəaliyyət göstərir. Üzeyir Hacıbəylinin "Arşın mal alan", Zaur Vedilinin "Meşə macəraları", Nağı İsmayılzadənin "Ağca və Bozca", Kəmalə Ağayevanın "Göyçək Fatma" və sair əsərlərə səhnə tərtibatı verib. Onun söhbəti: – Tamaşa haradan başlanır? İlk olaraq bədii şuranın yığışaraq tamaşanın təsdiq edilməsindən. Sonra ssenari oxunur. Ondan sonra hər birimiz öz işimizə başlayırıq. Rəfael Qədimov deyir ki, o, quruluşçu rəssam kimi eskizlər hazırlayır. Sonra onu təsdiq etmək üçün yenidən bədii şura yığılır. Əgər bədii şura bəyənirsə, tamaşanın eskizləri təsdiq olunur. Bu prosesdən sonra tamaşanın eskizləri sexlərə göndərilir. Butafor, dərzi (dekorasiya eskizləri), dülgər sexi işə başlayır.







Hər iş tamam olandan sonra bədii şura yenidən toplanır və ümumi baxış keçirilir. Əgər hər hansı bir qüsur varsa, aradan qaldırılır. Bundan sonra səhnə əsəri tamaşaçılara təqdim edilir.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, teatrın quruluşçu rəssamı Sabir Məmmədov teatrın "gözəgörünməz"lərindən biridir. Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Rəssamlar Birliyinin üzvü Sabir Məmmədovun söhbəti: "Kuklaların hazırlanması yazılmış ssenari əsasında eskizə işlənir. Verilən müxtəlif obrazlar eskiz əsasında kukla formasına salınır. İlkin olaraq onların maketləri hazırlanır və daha sonra müəyyən prosesdən keçir. Bu prosesdə dərzi işləri, hərəkət mexanizminin hazırlanması var. Yəni bunların hər biri yaradıcı əməyin bəhrəsidir. 6-7 ildir ki, bu cür kuklalar hazırlamaqla məşğulam. Kuklaların hazırlanma prosesində çalışırdıq ki, yeniliklər olsun. Yeni fikirlərimiz, ideyalarımız da vardır ki, gələcəkdə onları həyata keçirmək istəyirik".

Teatrın dərzisi Xanım Sadıxova: "2008-ci ildən burada fəaliyyət göstərirəm. Mən peşəmi çox sevirəm. Rəssamların hazırladıqları eskizlər əsasında işləyirəm. Bu iş elədir ki, çox incə detallara diqqət etmək lazımdır. Rəssamlar ilk olaraq onların üzərində çalışırlar. Ondan sonra kukla rəssamları taxta hissələrini yonub düzəldirlər. Sonra bizə gəlir və biz də öz iş texnikamıza uyğun olaraq hazırlanma prosesini davam etdiririk. Qeyd edim ki, personajlar kukla forması ilə yanaşı, həm də aktyorların özləri üçün hazırlanır. Parça seçiminə də rəssamla birgə qərar veririk.

Tamaşalarda hazırladığımız kostyumları və kuklaları görəndə çox fərəhlənirəm. Ona görə ki, uşaqların dünyasına müxtəlif personajlarla yol tapa bilirik. Onlar həmin personajları səhnədə görəndə alqışlayır, sevinirlər. Bu sevinc isə həm də bizim əziyyətimizin bəhrəsidir. Uşaqlar sevdiyi personajlardan ən çox milli olanları xoşlayırlar. Onlardan "Cırtdan", "Qoğal", "Göyçək Fatma" və başqa əsərləri deyə bilərik.

Onu da bildirmək istəyirəm ki, muxtar respublikamızda keçirilən konsertlər, festivallar, bayram şənlikləri üçün hazırlanan geyim dəstlərinin bir çoxunu burada mən tikirəm".

Teatrın ədəbi dram hissəsinin rəhbəri Durna Təhməzova: "2017-ci ildən teatrda fəaliyyət göstərirəm. Məsləhət görülən əsər bədii şurada müzakirə edildikdən sonra tamaşa üçün qəbul olunur, quruluşçu rejissora verilir. Daha sonra rəssamla rejissorun əsər üzərində yaradıcılıq işi başlanır. Heyətin əməyinin nəticəsi olaraq məşq proseslərindən sonra tamaşa təhvil verilir. Səhnələşdirdiyimiz tamaşalar balacalarla yanaşı, onların əlindən tutub gətirən böyüklərimizin də marağına səbəb olur".

Bir saata yaxın çəkən söhbətimizdə gördükləri işlərdən danışan müsahiblərimizin tamaşa təqdim olunana qədərki zəhməti isə günlərlə davam edir...

**Aidə İBRAHİMOVA**

# Voleybolçu qızlarımız güc baxımından oğlanlardan heç də geri qalmırlar




Son zamanlar Azərbaycan idmançılarının beynəlxalq arenada əldə etdiyi nailiyyətlər onu deməyə əsas verir ki, ölkəmizdə bu sahənin inkişafına yüksək səviyyədə diqqət göstərilir. İnsan sağlamlığı üçün çox önəmli amil olan idman prioritet məsələlərdən biridir. Məhz bunun ifadəsidir ki, son zamanlar muxtar respublikada da voleybol idman növünün inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Belə ki, voleybol idman növünün inkişafı ilə bağlı mütəmadi olaraq şəhər və rayonlarda məşqçi-müəllimlərlə, idmançılarla görüşlər keçirilir, həmçinin məşq zallarının vəziyyəti öyrənilir, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün istiqamətlər müəyyənləşdirilir. Naxçıvan Voleybol Federasiyasının "2023-2028-ci illər üçün İnkişaf Strategiyası"nın layihəsi hazırlanıb və inkişaf strategiyasında federasiyanın dəyərləri, strateji baxışı, missiya və hədəfləri müəyyən olunub.





Qeyd edək ki, son zamanlarda muxtar respublikada gənc və yeniyetmə qızların da bu idman növünə cəlb olunması üçün İlham Əliyev adına Olimpiya İdman Kompleksində həftənin 6 günü oğlan və qızların ayrı-ayrılıqda məşq etmələri üçün saatlar ayrılıb. Qadınlarımızın dünya səviyyəli yarışlarda öz güclərini sınamaları, ölkəmizə yüksək mükafatlarla qayıtmaları hər birimizdə qürur hissləri yaradır. Hazırda diyarımız Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş Azərbaycan və Türkiyənin yeniyetmə qızlardan ibarət voleybol klublarının iştirakı ilə "Muxtariyyət kuboku" uğrunda birinciliyə ev sahibliyi edir.

İlham Əliyev adına Olimpiya İdman Kompleksində Azərbaycan Voleybol Federasiyasının dəstəyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Voleybol Federasiyası tərəfindən birgə təşkil olunan yarışda U-16 Azərbaycan millisi, Gəncə, Sumqayıt, Tovuz, Şərqi Zəngəzur regional voleybol klubları, qardaş Türkiyənin Əskişəhər və İğdır şəhərlərinin komandaları və "Naxçıvan" komandası iştirak edir.

Biz də "Şərq qapısı" qəzeti olaraq "Muxtariyyət kuboku" uğrunda birinciliyin iştirakçıları ilə yaxından tanış olub onların təəssüratlarını öyrəndik. Şərqi Zəngəzur regional voleybol klubunun voleybolçusu Mehriban Əhmədova bildirdi: "Bu yarışın Naxçıvanda keçirildiyini öyrənəndə çox sevindik. Çünki hər zaman Naxçıvan mənə maraqlı gəlirdi. İnşallah, gələcəkdəki oyunlara da Şərqi Zəngəzur yolu ilə gəlib Naxçıvanda qonaq olarıq. Bugünkü yarışda komandamız qalibiyyət uğrunda mübarizəyə qoşulacaq. Bütün iştirakçılara uğurlar arzulayıram".



Yarışda ölkə komandaları ilə yanaşı, qardaş Türkiyənin Əskişəhər və İğdır şəhərlərinin komandaları da iştirak edir. DSİ BENTSPOR klubunun üzvü Fatma Ezel Atlı bildirdi ki, 8 ildir, voleybolla məşğul olmağına baxmayaraq, bu gün çox həyəcanlıdır. Bu yarışın Naxçıvanda keçirilməsi onlar üçün qürurvericidir. O düşünür ki, bu yarış voleybolçular üçün çox yaxşı təcrübə olacaq.

İğdır Gənclik Mərkəzinin İğdır idman klubunun üzvü 17 yaşlı Fatmanur Toka deyir: "Əvvəllər Naxçıvanda qonaq olduğum üçün bura mənə daha doğmadır. Komandamızın üzvləri ilə birgə gəzib-görməli yerlərdə olduq. Bu yarışın əhəmiyyəti böyükdür. Türkiyəmizi təmsil etmək bizim üçün bir qürurdur. Yarışda əlimizdən gələni edəcəyik. Qalibiyyət uğrunda mübarizə aparan digər voleybolçu xanımlara uğurlar arzu edirəm. Güclü olan qazansın".

Digər müsahibimiz U-16 Azərbaycan millisinin üzvü Çinarə Rəhimova: "Yarışa əvvəlcədən çox ciddi hazırlaşdığımız üçün qazanacağımıza inanıram. Oyunlar çox maraqlı keçir. Biz burada həm əylənir, həm də birincilik uğrunda mübarizə aparırıq. Digər komandalarla rəqib olmaqla, eyni zamanda dostluq münasibətlərimiz də var. Bu yarışın təşkil olunmasında əməyi keçən hər kəsə minnətdarlığımı bildirirəm. Voleybol bizim həyatımızın bir parçasıdır. İnanıram ki, gələcəkdə beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil edib Azərbaycan Bayrağını daim zirvələrə ucaldacağıq".

Yarış müddəti müşahidələrimizdən o nəticəyə gəlirik ki, komanda olmaq dostluq, yoldaşlıq, bir-birinə dayaq olmaq deməkdir. Bizim voleybolçu qızlarımız da güc baxımından oğlanlardan heç də geri qalmırlar.

Qeyd edək ki, 7 sentyabr turnirin son günündə final və üçüncülük oyunları keçiriləcək.

✍ **Bülbül QULİYEVA**



Fatmanur Toka



Fatma Ezel Atlı



Çinarə Rəhimova



Mehriban Əhmədova

# Naxçıvan mənim üçün çox əzizdir, çünki uşaqlıq illərimi bu diyarda keçirmişəm

Bunu "Şərq qapısı" qəzetinə açıqlamasında Fransada keçirilən "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan, Azərbaycanı T12 kateqoriyasında uzunluğa tullanma üzrə yarışda təmsil edən Səid Nəcəfzadə deyib. 7,27 metr nəticə ilə ölkəmizə qızıl medal qazandıran paraatletimiz keçirdiyi hissləri bizimlə bölüşüb:

"Paralimpiya çempionu olmaq, həqiqətən, çox qürurverici bir hissdir. Yarış çox çətin və həyəcanverici keçdi. Yarışlara gəlməmişdən əvvəl Dünya çempionu olmuşdum və məqsədim paralimpiya çempionu olmaq idi. Hazırlıqlarımız, əsasən, Bakıda və ölkəxarici təlim-məşq toplanışlarında olurdu. Ən güclü rəqiblərimdən biri isə dünya rekordçusu idi, şükürlər olsun ki, ona da qalib gəlməyi bacardım. Mənim atam və babam da naxçıvanlıdır. Bu torpaqlar mənim üçün çox əziz və doğmadır, uşaqlıq illərim bu diyarda keçib. Hər il yay aylarında ailəmlə birlikdə Naxçıvana gəlirik, qohumlarımın çoxu orada yaşayır. İstər Naxçıvan, istərsə də Azərbaycanın başqa regionlarında yaşayan bütün gəncləri idmanla məşğul olmağa dəvət edirəm. Artıq məktəb yaşlarında idman məktəblərinə yazılmalıdırlar. Bu məktəblər onların peşəkar idmançı kimi formalaşmalarına yaxından köməklik göstərəcək. Təbriklərə görə bir daha çox sağ olun. Siz də daxil olmaqla "Şərq qapısı" qəzetinin digər əməkdaşlarına minnətdarlığımı bildirirəm".




Qeyd edək ki, Səid Əli oğlu Nəcəfzadə Şahbuz rayonunun Güney Qışlaq kəndindədir.

✍ **Rafiq TƏHMƏZ**



# Naxçıvan cüdoçuları ölkəmizi beynəlxalq turnirdə uğurla təmsil edib

Türkiyənin Samsun şəhərində "XX Uluslararası Karadeniz Judo Şampiyonası" adlı beynəlxalq cüdo turniri keçirilib. Avqustun 30-dan sentyabrın 1-dək davam edən yarışa ev sahibi Türkiyə ilə yanaşı, Azərbaycan və Gürcüstandan, ümumilikdə, 700-dən çox idmançı qatılıb. Ölkəmizi yarışda təmsil edən Naxçıvan cüdoçuları 2 qızıl, 4 gümüş medal qazanıblar. Komandamız ümumi sıralamada üçüncü olub.

Naxçıvan Güləş Federasiyasının tərkibindəki cüdo yığma komandasının baş məşqçisi Orxan Quliyev və məşqçi Xəyal Qəhrəmanovun rəhbərliyində 10 idmançımız turnirdə iştirak edib. Təmsilçilərimizdən 6-sı mükafatçılar sırasına düşüb.

Nəticələrə əsasən Ziya Əsədli (26 kiloqram) və Bilal Quliyev (30 kiloqram) 13 yaşadək cüdoçular arasında öz çəkilərində birinci olmaqla fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər. Ayaz Əliyevlə (30 kiloqram) Pərvin İsmayılov (34 kiloqram) həmin yaş kateqoriyasında ikinci olublar. 15 yaşadək cüdoçular arasında çıxış edən digər iki idmançımız – Mətin Salahov və Sərxan Allahverdiyev də gümüş medalla yarışı tamamlayıblar.

# Torpaqla, təbiətlə iç-içə



*Zəngin və müdrik torpaqlarda yaşayırıq. Nuhun binə saldığı bu müqəddəs məkan hər tərəfdən hündür dağlarla əhatələnmiş dərəni xatırladır. Ətrafımızda gördüyümüz göz işlədikcə uzanıb gedən görkəmli dağlar və torpaqlara canverən güclü çaylar xeyli zamandır buranı özlərinə məskən ediblər. Onlar bizdən çox qədimdirlər. Təbiət milyonlarla ildə səbirlə, əzmlə yaşadığımız ekosistemi formalaşdırıb. Yaşadığımız təbiət bizə – yəni insana ana şəfqəti ilə yanaşaraq hər keçən gün yeni bir şey öyrədir. Min illər əvvəl insan bu torpaqlarda taxıl istehsalını kəşf etdi. Elə hər şey də bununla başladı... Kənd təsərrüfatının inkişafı ilə bu torpaqlar mədəniyyətin inkişaf beşiyinə çevrildi.*



İnsan ilk dəfə buğdanı emal etməyi öyrənən əcdadına görə artıq daha çox inkişaf edib. Həyatı boyunca aclıq nədir bilməyən bu torpaqların insanları bu gün bilik ehtiyatını da, istehsal təcrübələrini də, məhsul çeşidlərini də artırıb. Təbiətlə işləməyin, həyat qaynağı olan bitkiləri istehsal etməyin, heyvanlardan fayda əldə etməyin min bir yolunu kəşf edib. Yaşadığımız məmləkətin hər yerindən axan saf sular insanların əkib-biçməyi öyrəndiyi bapbalaca toxumları, kiçicik fidanları adam boyunu keçən tarlalar, bağlar halına gətirir. İndi insan istehsal etdiyi məhsulu qoruyan, qayğısına qalan, çoxaldan müdrik bir varlıqdır. Özünə əkinçi, heyvandar, fermer, ailə təsərrüfatçısı, kənd təsərrüfatı məhsulları istehsalçısı deyir. Sahib olduqlarını dərk edir və daha artığını istehsal etməyə çalışır.

Kənd təsərrüfatı, sadəcə, bir sənaye, bir iş növü, məşğuliyyət, ya da hobbi deyil, bundan daha artıqdır. Bir yaşam tərzi, bir həyat fəlsəfəsi, köklərimizdən gələn bir məfhumdur. Təsərrüfatçılarla maraqlansanız onlardan bir şeyi eşidib öyrənərsiniz; bu insanlar səhər tezdən oyanıb gedib bitkiləriylə, heyvanlarıyla söhbətləşirlər. İstini hiss edirlər, soyuğu hiss edirlər, yağışı, küləyi hiss edirlər hər gün. Bunları yaşamayan, təcrübədən keçirməyən birinə bunu izah etmək çox çətindir.

Təsərrüfatçı olmaq bir peşədir, desək, yanılmarıq, bəlkə də. Hamımız təsərrüfatçı ola bilmərik. Təsərrüfatçı ola bilmək üçün torpağı sevmək, torpaqla ünsiyyət qurmağı bacarmaq, keçmişin təcrübələrindən yararlanmaq və onları gələcək nəsillərə ötürməyi bacarmaq lazımdır. Hər sonrakı nəsil torpağı əmanət aldığını və bu torpaqların hamımızın olduğunu dərk edərək hərəkət etməlidir.

Yaşadığımız bu torpaqların bir məziyyəti var; olduqca rəngli bir torpaq formasına, torpaq keyfiyyətinə və coğrafiyasına sahibdir. Bu torpaqlarda, bu iqlimdə yetişməyən çox az məhsul var. Min illərdir ki, insanların tər tökdüyü bu torpaq heç vaxt zəhməti qarşılıqsız, əziyyəti bəhərsiz, torpağa tökülən təri zərsiz qoymayıb. Görülən hər bir işin qarşılığını qat-qat artıqlaması ilə geri ödəyib: sözün hər iki mənasında. Ona görə də bu yerlərin insanları həmişə torpağa, zəhmətə bağlı olub. Əkib-becərib, yetişdirib, çoxaldıb və istehsal etdiyi məhsulla həm özünü, həm də məhsul istehsal edə bilməyənləri təmin edib.

Toplayıcılıqdan əl çəkib özünü öz istehsalı olan məhsulla təmin etmək, kənd təsərrüfatı ilə məşğul olmaq arzusu insanları köçərilikdən oturaq həyata bağladı. Bu zərif sərmayə insanların gələcəyini təminat altına ala biləcək ən dəyərli xəzinədir. Zamanın bizə gətirdiyi yeni imtahanlardan sonra – pandemiya dövründə biz yenidən və daha yaxşı anladıq ki, ona gözümüz kimi baxmalıyıq. Heç gözləmədiyimiz bir anda gələcəyimizin havaya, torpağa, suya, təsərrüfatçılarımıza, qısacası kənd təsərrüfatına nə qədər bağlı olduğunu bir daha dərindən hiss etdik. Baş verənlər belə bir nəticəyə gəlməyə imkan verir: bəlkə, qocaman və müdrik təbiət bizə nə isə danışmaq istəyir?



*(ardı var)*

✍ **Məmməd BABAYEV**



### İtmişdir

Şərur rayonu, Muğanlı kəndində yaşamış Mahmudov Qadir Tağı oğlunun adına olan JN-34$^A$, JN-34$^B$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Novruzova Nigar Ziyafət qızının adına Naxçıvan Müəllimlər İnstitutu tərəfindən 2017-ci ildə verilmiş A-117783 seriya nömrəli diplom itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Şükürov Zeynalabdın Yaqubəli oğlunun adına olan JN-445 nömrəli, 10200088 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kəndində yaşamış Məmmədov İnqilab Məmməd oğlunun adına JN-135$^B$ nömrəli, 10312018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kənd sakini Hüseynəliyeva Lətifə Abbas qızının adına olan JN-773 nömrəli torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Hacıvar kənd sakini Allahverdiyev Orduxan Xanəli oğluna məxsus 7 aprel 2020-ci il tarixli A-022948 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kənd sakini Həsənov Mehman Ələsgər oğlunun adına olan JN-335$^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Cengiz Akıllıya məxsus kimlik itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Araz kənd sakini Cəfərov Rüfət Səfər oğlunun adına olan JN-2454$^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Biləv kənd sakini Səfərova Zeynəb Səfər qızının adına olan 256 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşamış Bayramov İslam Abbas oğlunun adına olan JN-1505$^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Mirzəyeva Məriyəm Hüseyn qızının adına verilmiş 102013004831 reyestr nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Rəsulov Rəsul İbrahim oğlunun adına olan JN-369 nömrəli, 10218018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Yaycı kənd sakini Əliyev Həmid Mahmud oğlunun adına olan 102013009571 nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində yaşamış Rəcəbov Tahir Zülfəli oğlunun adına olan 387$^A$ nömrəli, 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQqapısı

Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 020065441

Çapa imzalanmışdır 00:00

Nömrəyə məsul: Aidə İbrahimova, Məcid Əkbərov
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 270